

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

11 oktyabr 2024-cü il, cümə
№ 187 (6773)
Qiyməti 60 qəpik


# Azərbaycana böyük inam

## İlham Əliyev: Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək



Bax səh. 2

## Zəfərə 29 gün qalırdı...

Bax səh. 3

## Nümunəvi və təşəbbüskar ölkə...




Bax səh. 4

## Dünya müharibə cinayətlərinə səssiz qalmamalıdır!

Bax səh. 3

## LAÇIN-"YAŞIL" ŞƏHƏR



Bax səh. 3

## Xalqımızı birləşdirən dəyər...

1991-ci ildə dövlət müstəqilliyimiz bərpa edilsə də, ölkəmiz özünün istiqlalını, varlığını itirmək təhlükəsi ilə üz-üzə idi. Lakin 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə Azərbaycanı düşdüyü vəziyyətdən xilas etdi. Bu xilaskarlıq missiyasının kökündə müasir azərbaycançılıq ideologiyası durur. Heydər Əliyevin bütün həyatı boyu inandığı, dəstəklədiyi, formalaşdırdığı, vahid amala çevirdiyi, xalqı bu amal ətrafında birləşdirdiyi azərbaycançılıq ideologiyası...

Həqiqətən də azərbaycançılıq dövlətimizin milli ideologiyasının özəyini, əsasını təşkil edir. Eyni zamanda dövlətçilik, milli dəyərlər, ümumbəşəri dəyərlər kimi qlobal məsələlər azərbaycançılığın tərkib hissələri kimi...

Bax səh. 5

## Bələdiyyələr birləşdiriləcək?

Azərbaycanda bələdiyyələrin fəaliyyəti ilə bağlı mütəmadi islahatlar aparılır. Qanunvericilik təkmilləşdirilir, fəaliyyətin daha dinamik və optimal şəkildə həyata keçirilməsi üçün addımlar atılır. Qeyd edək ki, bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur - struktur Azərbaycan Respublikasının Konstitusiyası, eyni zamanda "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyasında keçmiş postsovet məkanı üçün tamamilə yeni olan hüquqi təsisat - yerli...

Bax səh. 5

## "Şimal-Cənub" dəhlizi iqtisadi rifaha yönəlib

Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında ölkələr arasında ticarət-iqtisadi əməkdaşlığın artmasında nəqliyyat-tranzit dəhlizlərinin rolu da xüsusi olaraq yüksək dəyərləndirilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, "Bir kəmər, bir yol" tranzitinin mühüm tərkib hissəsi olan Trans-Xəzər marşrutu (Orta Dəhliz) ilə bərabər, "Şimal-Cənub" dəhlizində sinxron daşınmaların həyata keçirilməsi, əlavə logistik imkanların birləşdirilməsi birlik ölkələri arasında iqtisadi əlaqələrin dinamikasına da müsbət təsir göstərməkdədir. Onun fikrincə, bu, qlobal...

Bax səh. 5

## Zelenski sülhə ümid bəsləyir

Ukrayna Prezidenti Volodimir Zelenski Avropa ölkələrinə səfəri zamanı yenidən sülh planını gündəmə gətirib. O, Xorvatiyaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Andrey Plenkoviçlə uzunmüddətli dəstək və əməkdaşlıq haqqında saziş imzalayıb. Xorvatiya ilə saziş də Ukraynanın təhlükəsizliyinə dair digər sazişlər kimi 10 il müddətinə qüvvədə olacaq. Bu saziş ilə Xorvatiya müharibədə qələbə qazanana qədər Ukraynanı dəstəkləmək borcunu təsbit edir. Digər məsələlərlə yanaşı, söhbət iki ölkənin müdafiə-sənaye kompleksləri arasında əməkdaşlıqdan gedir. Ölkələr, həmçinin rəqəmsal dayanıqlıq və kibertəhlükəsizlik sahəsində qarşılıqlı əlaqələri möhkəmləndirmək və kəşfiyyat məlumatları mübadiləsi imkanlarını araşdıracaqlar...

Bax səh. 6

## Son debat... Olmayacaq!



Bax səh. 7

## Gürcüstan AP-nın hədəfində...



Bax səh. 6

# Azərbaycana böyük inam

## İlham Əliyev: Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək

Azərbaycan noyabr ayında qlobal əhəmiyyət daşıyan daha bir mühüm tədbirə - COP29 iqlim konfransına ev sahibliyi edəcək. Bununla əlaqədar dünən Bakıda Pre-COP29 tədbiri işə başlayıb. Heydər Əliyev Mərkəzində keçirilən tədbir "Ambisiyanı artırmaq və iqlim fəaliyyətinə təkan vermək" mövzusuna həsr olunub. Prezident İlham Əliyev dünyanın ayrı-ayrı ölkələrindən nüfuzlu qonaqların qatıldıqları tədbir iştirakçılarına müraciət ünvanlayıb. Müraciətdə dövlətimizin başçısı iqlim məsələlərinin hazırda bütün ölkələr üçün aktual bir çağırışa çevrildiyinə, Azərbaycanın bu çağırışa həssas yanaşmasına, xoş məramdan çıxış edərək yüksək məsuliyyət nümayiş etdirməsinə və digər vacib məsələlərə diqqət çəkib. Müraciəti açılış mərasimində COP29-un müəyyən edilmiş Prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev oxuyub.



### Beynəlxalq səviyyədə Azərbaycana verilən yekdil dəstək

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı- COP Konvensiyanın ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın bütün yerlərindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində baş tutub.

COP BMT-nin ən irimiqyaslı tədbirlərindən biridir. Ötən il dekabrın əvvəlində Dubayda keçirilən sonuncu COP28 100 minə yaxın nümayəndəni bir araya gətirib. Konfrans çərçivəsində təşkil edilmiş Zirvə toplantısına 120-dən artıq dövlət və hökumət başçısı qatılıb. Sözügedən tədbirdə ilk dəfə olaraq Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib.

BMT-nin ən böyük tədbirlərindən birinə ev sahibliyi hüququ qazanması Azərbaycanın növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. COP29 kimi məsuliyyətli və genişmiqyaslı bir tədbirə ev sahibliyi etmək hüququnun Azərbaycana verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının ifadəsidir. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar.

Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. İndiyədək Azərbaycanda beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi və humanitar mövzularda tədbirləri keçirilib. Onlara beynəlxalq idman yarışlarını, müxtəlif mövzularda forumları, konfransları, müsabiqələri də bura aid etmək olar. Qeyd olunan siyahıda Formula 1 Azərbaycan Qran-Prisini, "Eurovision" mahnı müsabiqəsini, I Avropa və IV İslam Həmrəyliyi oyunlarını, Bakı Beynəlxalq Humanitar, Mədəniyyətlərarası Dialoq, Qlobal Bakı və Qlobal Media forumlarını, Dini Liderlərin Zirvə toplantısını, Qoşulmama Hərəkatının nazirlər görüşünü və digər tədbirlərin adlarını sadalamaq mümkündür. "Mən Azərbaycana verilən yekdil dəstəyi beynəlxalq ictimaiyyətin ölkəmizə olan inamının təzahürü hesab edirəm. Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək", - deyə dövlətimizin başçısı müraciətində vurğulayıb.

Qeyd edək ki, COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya olunur. Hər regional qrup üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir. 2024-cü ildə COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna çatıb. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsini təklif edib. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da öz namizədliklərini irəli sürmüşdülər. Proseslərin gedişində sonuncu iki ölkə öz namizədliyini geri çəkib və nəticədə dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP29-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. Bütövlükdə, respublikamızın namizədliyini 200-dək ölkə dəstəkləyib.

### Bütün ölkələr üçün böyük təhlükə

Azərbaycan həmişə o mövqedən çıxış edir ki, qlobal təhlükələrə qarşı beynəlxalq həmrəylik gücləndirilməlidir. Prezident İlham Əliyev Pre-Cop29 tədbirinin iştirakçılarına ünvanladığı müraciətində də iqlim dəyişmələrinin bütün dünya üçün həyəcan təbilinə çevrildiyinə xüsusi diqqət çəkib. "Burada Azərbaycan da istisna deyil. Biz hər il çaylarımızda suyun səviyyəsinin azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü görürük. Azərbaycan su qıtlığı problemi ilə də üzləşir", - deyə dövlətimizin başçısı bildirib.

Müraciətdə ifadə olunan narahatlığın təməlində dünyadakı real vəziyyət dayanır. Güclü sənaye inkişafı və qlobal istiləşmə nəticəsində yaranan iqlim dəyişmələrinin təzahürləri və fəsadları getdikcə daha da artır. Təhdidlərin miqyası çox böyükdür. İqlim dəyişmələrinin təsirləri həyatın bütün sahələrində özünü büruzə verir. Açıq statistikaya əsasən planetimizdə son yüz il ərzində havanın illik temperaturu 1 dərəcə artıb. Ən dəhşətlisi odur ki, temperaturun 0,75 dərəcə artımı son onilliyə təsadüf edir. Yer üzündə həyatın tam məhv olması üçün isə temperaturun 10-15 dərəcə artması kifayətdir. Xəbərdarlıq edilir ki, əgər temperaturun artması belə davam edərsə, onda 130-200 ildən sonra Yerdə həyat mövcud olmayacaq.

Müraciətdə vurğulandığı kimi, iqlim dəyişmələri bütün qitələrin ölkələrinə təsir edir, lakin inkişaf etməkdə olan kiçik ada dövlətləri bu təsirlərə daha həssasdır. Dörd bir tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətlərində vəziyyət getdikcə ağırlaşır. İndi iqlim çağırışları onlardan ötrü bir mövcudluq məsələsinə çevrilib. Okeanın ortasında bol su heç də xoşbəxtlik anlamında qəbul olunmur. Bu dövlətlər yüksək gəlirli ölkələr sayılsalar da, onlar tez-tez təbii fəlakətlərlə üzləşirlər. Məsələn, itki və zərərlər məsələsi Tuvalu tərəfindən on ildən çoxdur ki, qaldırılır və yalnız keçən il bununla bağlı müəyyən razılığa gələmək mümkün olub. Ötən il Nyu-Yorkda BMT Baş Assambleyasında müzakirələrdən sonra "Səyahətçilər klubu" ada dövlətlərinin təmsilçilərinə öz hesabatını təqdim edib. Təqdimatda əgər iqlim dəyişmələrinin yaratdığı problemin qarşısını alınmasa, 2070-ci ildə paytaxt şəhər Nassau və adaların hansı vəziyyətdə olacağı nümayiş etdirilib. Adanın 30 faizi suyun altında qalacaq. 2100-cü ildə isə bu rəqəm 70 faizədək artacaq.




### Azərbaycanın həssas yanaşması

İndiki şəraitdə dərk olunur ki, hər bir dövlət öz siyasətində dekarbonizasiya məsələlərini önə çəkməlidir. Bu mənada, məsuliyyətli dövlət olan Azərbaycanın iqlim çağırışlarına son dərəcə həssas yanaşması təqdirəlayiqdir. Ölkəmizin nümunəsinə diqqət çəkən dövlətimizin başçısı "Azərbaycan bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə "təmiz ətraf mühit və yaşıl artım" üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq", - deyə vurğulayıb.

Respublikamız iqlim dəyişikliyi ilə bağlı BMT-nin çağırışlarına fəal şəkildə qoşulan ölkələr sırasında yer alır. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Azərbaycanın COP29-a ev sahibliyi etməsi, şübhəsiz ki, ölkəmiz üçün 2024-cü ilin ən mühüm hadisəsi olacaq. Bunu eyni zamanda respublikamızın yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı və iqlim çağırışlarına həssas yanaşmasının təzahürü kimi qiymətləndirmək mümkündür. Azərbaycan Prezidentinin sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir. Bu təşəbbüs sadəcə rəmzi məna daşımır, həmçinin Azərbaycanın müsbət ekoloji dəyişmələr yaratmaq məqsədi daşıyan ölkələr üçün nümunə olmaq istəyidir, eyni zamanda, gələcək nəsillər üçün daha yaşıl və sağlam gələcəyin qurulması istiqamətində öhdəliyini, strateji məqsədlərini və fəal tədbirlərini əks etdirən addımdır. Ölkəmiz yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də təsdiqləyir. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Yeni qlobal çağırışların yarandığı indiki mərhələdə enerji transformasiyası Azərbaycanın da gündəliyində dayanan vacib məsələlər sırasında yer alır. Karbohidrogen resursları ilə zəngin olan respublikamız da elektrik enerjisi istehsalında yaşıl enerjinin xüsusi çəkisinin artırılmasını hədəfləyib. Bu da onunla bağlıdır ki, respublikamız bərpa olunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. Ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki baxımdan istifadəsi mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı 27000 MVt həcmində qiymətləndirilir. Qeyd edək ki, son illərdə respublikamızda külək enerjisi istehsalı 131 dəfə, günəş enerjisi istehsalı isə 55 dəfə artıb. Ölkəmiz növbəti illərdə bərpa olunan enerjinin ümumi istehlakda payını artırmaq niyyətindədir. Bu sahədə 2030-cu ilədək qarşıya qoyulan hədəf bərpa olunan enerjinin ümumi istehlakda payının 30 faizdən çox artırılmasına nail olmaqdan ibarətdir. Azərbaycanın geniş potensialına və hədəflərinə diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpa olunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. "Yaşıl enerji" zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpa olunan enerji mənbələrinə malikdir.

Azərbaycan, həmçinin neft və qaz hasilatından əldə etdiyi gəlirləri yaşıl enerjiyə yatırır. Bu, açıq şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız yaşıl gündəliyi təşviq etmək istiqamətində addımlarımıza mane olmur".

Qlobal istixana qazı emissiyalarında ölkəmizin payı cəmi 0,1 faiz təşkil edir. Bununla belə, öz məsuliyyətini anlayan Azərbaycan nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini nümayiş etdirir. Vurğulamaq yerinə düşər ki, ölkəmiz neft sektorunda "sıfır emissiya" hədəfi müəyyənləşdirib.

### Dərhal başlayan hazırlıq prosesi

Ölkəmizdə gözəl ənənə formalaşıb. Azərbaycan beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edərkən özünün yüksək standartlarını müəyyənləşdirir və sonradan bu standartlar dünyada nümunə kimi qəbul olunur. Respublikamız COP29-a da eyni dərin məsuliyyətlə hazırlaşır. Bunu diqqətə çatdıran Prezident İlham Əliyev "İxtiyarımızda bir ildən az vaxtın olmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir", - deyə bildirib.

Azərbaycan COP29-a uğurla ev sahibliyi etmək gücündə və əzmindədir. Hazırlıq işlərinə vaxt itirilmədən başlanıb. Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə COP29-un, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyalarının 2024-cü ildə Bakı şəhərində təşkili və keçirilməsinin təmini məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Təşkilat Komitəsi yaradılıb. Yanvarın 22-də Samir Nuriyevin sədrliyi ilə Təşkilat Komitəsinin ilk iclası keçirilib. Oktyabrın 1-də isə Təşkilat Komitəsinin yeddinci iclası baş tutub. İclasda Prezident İlham Əliyevin COP29-a hazırlıq prosesini daimi olaraq diqqətdə saxladığını qeyd edən Təşkilat Komitəsinin sədri dövlətimizin başçısının sentyabrın 10-da Bakı Olimpiya Stadionunda COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olaraq müvafiq tapşırıq və göstərişlər verdiyini diqqətə çatdırıb. Bildirildiyi kimi, bütün işlər Tədbirlər Planına uyğun görülür. Təkcə son vaxtlarda COP29 Sədrliyi tərəfindən Bakıda müxtəlif vacib tədbirlər, o cümlədən İtki və Zərər Fondunun 3-cü iclası keçirilib. Eyni zamanda, Bakı İqlim Həftəsi baş tutub. S.Nuriyev Azərbaycan QHT-lərinin "Gələcəyin Sammiti"nin işində fəal iştirak etdiklərini və bunun nəticəsi olaraq 22 ölkədən 44 QHT nümayəndəsinin Azərbaycanın COP29-a ev sahibliyi edən ölkə kimi inklüzivliklə bağlı addımlarını dəstəkləyən bəyanat verdiyini bildirib.

Onu da qeyd edək ki, Azərbaycan COP29-a hazırlığı sıx beynəlxalq əməkdaşlıq şəraitində həyata keçirir. Göstərilən səylərin davamlılığını təmin etmək məqsədilə müvafiq olaraq COP28, COP29 və COP30-un sədrləri qismində BƏƏ, Azərbaycan və Braziliya tərəfindən "İqlim Troykası" təsis edilib.

### Geniş əhatə dairəsinə malik olan gündəlik

İqlim çağırışlarının ciddiliyi məsələyə dərin məsuliyyətlə yanaşılmasını tələb edir. Təəssüf ki, bu məsuliyyət heç də həmişə və hər yerdə nümayiş etdirilmir. Məsələ ondan ibarətdir ki, müxtəlif platformalarda iqlim dəyişikliyinin fəsadlarından və potensial təhlükələrindən danışılır, uzun-uzadı müzakirələr aparılır. Qərarlar isə gec qəbul olunur və yaxud adekvatlıq təşkil etmir. Prezident İlham Əliyev nəticəyönümlü müzakirələrin aparılmasının zəruriliyini dəfələrlə diqqətə çatdırıb. Biz yuxarıda kiçik ada dövlətlərinin ağır vəziyyətindən bəhs etdik. Onlar üçün, necə deyərlər, zaman gözləmir. Buna görə də daha səmərəli tədbirlər görülməli, daha həssas yanaşma sərgilənməlidir. Prezident İlham Əliyev müraciətində bildirib ki, qarşımızda duran əsas vəzifə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və idealı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni maliyyə məqsədi əhəmiyyətli artım tələb edir. "Biz inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritet olaraq müəyyənləşdirmişik. Azərbaycan bu dövlətlərə kömək etməyi özünə mənəvi borc hesab edir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Ümumiyyətlə, iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizə ardıcıl səciyyə daşımalıdır. Burada zaman və heç bir fürsət əldən verilə bilməz. Bu xüsusda ölkəmizin yeni təşəbbüsü də təqdirəlayiqdir. Yeni "Şamaxı məsləhətləşmələri" təşəbbüsündən bəhs edən dövlətimizin başçısı deyib: "COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz. Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu zərərsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ "Şamaxı məsləhətləşmələri" iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər".

İqlim dəyişmələrinin fəsadlarının dərinləşməsinə həm də bir sıra hallarda ölkələrin, dövlətlərin bu məsələ ətrafında bir-birlərinin ünvanına lüzumsuz ittihamlar səsləndirmələri səbəb olur. Belə ittihamlarla üstümüzə sel kimi gələn fəlakətin qarşısını ala bilərikmi? Əslа! Prezident İlham Əliyev bu məsələyə münasibətdə hər kəsi xoş məram nümayiş etdirməyə çağırıb: "COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda, mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur".

***Mübariz ABDULLAYEV***

# Dünya müharibə cinayətlərinə səssiz qalmamalıdır!



Dörd il bundan əvvəl tarixin bu günündə - 2020-ci il oktyabrın 11-də Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətindən humanizm, doğma xalqına bağlılıq qırmızı xətt kimi keçir. Biz dəfələrlə müşahidə etmişik ki, o, Prezident İlham Əliyevlə birlikdə həmişə çətinliyə düşən insanların yanında olmağa, onlara kömək göstərməyə tələsir. Tək olmadıqlarını anlayan insanlar da onun nəvazişindən, diqqətindən, göstərdiyi həssas rəftarından, qayğıdan məmnun qalırlar və onların dövlətimizə olan inamı daha da artır. Dörd il bundan əvvəl tarixin bu günündə - 2020-ci il oktyabrın 11-də Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. Bu paylaşımda Mehriban xanım Əliyevanın xalqına bağlılığı, insanların faciəsinə ürəkdən yanması və terrora nifrəti ifadə olunub. "Əziz həmvətənlər!

Bu gün siz xalqımızın birlik, həmrəylik, şəfqət və qarşılıqlı yardım kimi ən yaxşı xüsusiyyətlərini nümayiş etdirirsiniz. Bu, böyük qürur hissi yaşatmaya bilməz! Həqiqət və ədalət bizim tərəfimizdədir! Biz zəfər çalacağıq! Allah həlak olanlara rəhmət eləsin. Xəsarət alanların tezliklə sağalmasını arzulayıram. Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun! Qarabağ Azərbaycandır!", - deyə Mehriban xanım Əliyeva paylaşımında bildirib.

**Misli görünməmiş müharibə cinayəti**

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində havadarlarının dəstəyi ilə Azərbaycanın ərazilərinin 20 faizini işğal altına alan, bir milyondan artıq soydaşımızı zorla ev-eşiklərindən didərgin salan, Xocalı faciəsini törədən ermənilər özlərindən saxta "qəhrəman xalq" mifi düzəltmişdilər. 44 günlük Vətən müharibəsi bu mifləri tar-mar etdi. Dünya döyüş meydanlarında erməni hərbçilərinin nə qədər qorxaq və aciz olduqlarına şahidlik etdi. Ermənistanın özündə təsdiqlənən statistikaya əsasən İkinci Qarabağ müharibəsində düşmən ordusunda 11 mindən çox fərari qeydə alınıb. Erməni əsgər və zabitləri silahlarını ataraq mövqelərindən qaçırdılar. Vurğulamaq yerinə düşər ki, Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu 300-dən artıq yaşayış məntəqəsini aktiv döyüşlərdə işğaldan azad etməyə nail oldu. Təkcə bu faktın özü kimin qəhrəman xalq olduğunu bir daha təsdiqləyir.

Məğlubiyyət acısı yaşayan Ermənistan silahlı qüvvələri bunun qisasını mülki infrastrukturu və keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizi intensiv atəşə tutmaqla çıxmağa çalışırdılar. Müharibənin davam etdiyi 27 sentyabr - 10 noyabr 2020-ci il tarixləri ərzində Ermənistanın fərari ordusu tərəfindən vurulan zərbələr nəticəsində azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 30 minə yaxın mərmi və 227 raket atılıb. Döyüş meydanında məğlub duruma düşən Ermənistan davamlı şəkildə Mingəçevirə, Tərtərə, Bərdəyə, Qəbələyə və digər yaşayış məntəqələrimizə raket hücumları edərək müharibə və insanlıq əleyhinə cinayətlər törədib. Ermənistanın silahlı birləşmələri tərəfindən mülki şəxslərin çoxsaylı əmlakına ciddi ziyan vurulub, fərdi yaşayış evləri, çoxmənzilli binalar, qeyri-yaşayış sahələri dağıdılıb.

Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə də Ermənistanın müharibə cinayətlərinə tuş gələn yaşayış məntəqəsi oldu. Şəhər 2020-ci il oktyabrın 11-də raket atəşinə məruz qaldı. Mehriban xanım Əliyevanın paylaşımında Gəncə terrorunun miqyasına diqqət çəkilir. Şəhərə raketlərin gecə vaxtı saat 2 radələrində atılması erməni vəhşiliyinin və qəddarlığının miqyasını bir daha göz önündə canlandırır. Yuxuda olan insanlar partlayış səslərinə oyandılar. "Əldə olan məlumata görə, raket atəşi nəticəsində 9 nəfər (o cümlədən 4 qadın) həlak olub, 34 nəfər yaralanıb, çoxsaylı mülki obyektlərə ciddi ziyan vurulub.

Bizim şəhərlərin və kəndlərin atəşə tutulması demək olar ki, dünən bütün gün ərzində davam edib. Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb", - deyə paylaşımda vurğulanır.

**Beynəlxalq birliyə çağırış**

Müharibələri aparmağın da öz qanunları var. Müharibələrdə ancaq hərbi obyektlər və real təhlükə mənbələri hədəf kimi müəyyənləşdirilə və onlara atəş açıla bilər. Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərini və digər yaşayış məntəqələrini qadağan olunmuş silahlardan atəşə tutması beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərinin kobud şəkildə pozulması demək idi. Təəssüf ki, 44 günlük müharibədən və 23 saatlıq antiterror tədbirlərindən sonra öz gücünə ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycanı hədəf seçən, ölkəmizlə bağlı əsassız ittihamlar səsləndirən Fransa, ABŞ kimi ölkələr və AŞPA kimi qurumlar o dövrdə Ermənistan ordusunun çoxsaylı müharibə cinayətlərini görməzdən gəlirdilər. Budurmu Qərbin ədaləti və bizə aşılamaq istədiyi dəyərlər? Dünya birliyinə çağırış edən Mehriban xanım Əliyeva paylaşımında vurğulayıb:

"Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram.

Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər.

Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır.

Rusiyanın vasitəçiliyi ilə Moskvada əldə edilmiş razılaşmalara açıq-aşkar hörmətsizlik nümayiş etdirən Ermənistan Cənubi Qafqazda nəticələri onun üçün dağıdıcı olacaq müharibənin yeni mərhələsinə təhrik edir".

*Mübariz FEYİZLİ*



# Zəfərə 29 gün qalırdı...

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.***

**Vətən müharibəsinin 15-ci günü 11.10.2020**

• Ermənistan silahlı qüvvələri Gəncə şəhərini ağır artilleriya atəşinə tutub. Gecə saat 2 radələrində cəbhə zonasından kənarda yerləşən şəhərin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarının raket atəşinə tutulması nəticəsində 3-ü qadın olmaqla 7 nəfər həlak olub, 16-sı qadın, 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanıb. Həmçinin 10-dan çox çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.

• Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində mülki əhaliyə qarşı törətdiyi qanlı terror aktı ilə bağlı dünya birliyinə müraciət edib.

• FHN-in Gəncədə düşmənin raket atəşi nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları ilə bağlı yaydığı məlumatda dağıntılar altından xəsarət almış 17 nəfərin və 9 cəsədin çıxarıldığı bildirilib.

• Düşmənin gecə saat 4 radələrində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyasını hədəfə almaqla cəbhə zonasından 100 kilometrdən çox uzaqda yerləşən iri sənaye şəhəri Mingəçevirə atdığı raketlər Ordumuzun Hava Hücumundan müdafiə qüvvələri tərəfindən zərərsizləşdirilib.

• İtirdikləri mövqeləri geri qaytarmaq məqsədilə oktyabrın 10-dan 11-nə keçən gecə hücuma keçməyə cəhd göstərən düşmənin canlı qüvvə və vasitələri Azərbaycan Ordusunun bölmələri tərəfindən məhv edilib.

• Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 5 ədəd T-72 tankı, 6 ədəd D-20 və D-30 haubitsası, sursatla dolu 5 yük maşını, 11 ədəd digər avtomobil texnikası, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 5 ədəd 2S1 "Qvozdika" özüyeriyən haubitsası, 8 ədəd hava hücumundan müdafiə sistemi və radiolokasiya stansiyası sıradan çıxarılıb.

• Müdafiə Nazirliyi saat 08:00 radələrində Mingəçevir istiqamətində uçuşlar həyata keçirməyə cəhd edən Ermənistana məxsus pilotsuz uçuş aparatının Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən məhv edilməsinə dair görüntüləri paylaşıb.

• Azərbaycan Hərbi Hava Qüvvələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci əlahiddə artilleriya alayı bölmələrinə havadan endirilən zərbələr nəticəsində düşmən ağır itkilər verib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Daşkəsən, Füzuli rayonunun işğaldan azad olunan Horadiz və Tərtər rayonunun Suqovuşan kəndlərinin videogörüntülərini paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 11 oktyabr saat 13:00-a olan məlumata görə, 41 mülki şəxs həlak olub, 205 nəfər isə xəsarət alıb, 1165 ev, 57 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

# LAÇIN- "YAŞIL" ŞƏHƏR

Laçın şəhərinin 2025-ci il MDB-nin mədəniyyət paytaxtı elan edilməsi qürurdoğuran növbəti məqamlardan biridir. Ümumiyyətlə, oktyabrın 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında müzakirə olunan məsələlər, Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlər bir çox tərəfləri ilə ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir.

Hələ 2024-cü ilin 23 aprelində ADA Universitetində "COP 29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev belə bir fikir səsləndirmişdir: "Laçın Azərbaycanın ən füsunkar bölgələrindəndir və yaşıl gələcək haqqında danışırıqsa, görəcəksiniz ki, Laçın tamamilə yaşıldır".



Ötən gün, oktyabrın 8-də isə Laçın şəhəri 2025-ci il üçün MDB-nin mədəniyyət paytaxtı elan edildi. Bu xəbər əlbəttə ki, həm laçınlılar, həm də bütün Azərbaycan xalqı tərəfindən böyük minnətdarlıqla qarşılandı. Amma burda əhəmiyyətli olan digər həssas məqam var və bu məqam ölkə başçısının prosesə necə uzaqgörən və bütöv nəzərlərlə baxışını sərgiləyir. Məsələn, xatırlayırıqsa müharibədən az sonra, 2021-ci il "Nizami Gəncəvi ili" kimi elan olunmuşdur. O zaman, il girər-girməz ölkə başçısının bizləri "Nizami ili" sevinci ilə müjdələməsi mədəni iqlimə köklənməyə gözəl bir vəsilə olmaqla bərabər, maraq dairəsində olduğumuz bir zamanda dünyaya həm də Nizami xalqı, Nizami milləti olaraq üz tutmağımızın mesajı kimi simvolik çalar kəsb etmişdir. Prezident İlham Əliyevə görə Nizami məhz bizim bir xalq, dövlət kimi varlığımızın siması statusunda tanıdılmalı idi. Daha sonra 2022-ci il - Şuşa ili! Ölkə başçısının 2022-ci il, yanvarın 5-də bu yöndə sərəncama imza atması bizim bir xalq, dövlət kimi varlığımızın siması - sülhün və mədəniyyətin çağırışçısı statusunda tanıdılmağımız üçün unikal dəyər kəsb edirdi. Bununla da həmin dövrdən etibarən, milli-mədəni və tarixi irsimizin qorunması və təbliğ olunması istiqamətində estetik bir dönəm başlandı. İndi də Laçın şəhərinin 2025-ci il MDB-nin mədəniyyət paytaxtı elan edilməsi xəbəri! Bu qərar bizim haqq savaşımıza, qazanılan zəfərimizə ehtiram nümunəsi olmaqla yanaşı, həm də Qarabağla bağlı aparılan quruculuq işlərinə həm də mənəvi planda yanaşmaq, onun dəyərlərinin ehtiva olunduğu ən kiçik nüansı belə bədii-estetik yaddaşın məxəzinə çevirmək məqsədi daşıyır.

Əlbəttə ki, Laçın Azərbaycanın 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olmuş şəhərlərindən biri idi, tamamilə dağıdılmış, vandalizmə məruz qoyulmuş, yerlə-yeksan edilmiş digər ərazilərimizdən biri kimi... Artıq Laçın əvvəlki əzəmət və qürurunu bərpa etməkdədir, quruculuq prosesləri burada dinamik şəkildə həyata keçirilir, keçmiş məcburi köçkünlərin bir qismi doğma yurdlarına qayıdıb və bu qayıdış ardıcıl şəkildə reallaşacaq.

COP29 İqlim konfransına sayılı günlər qaldığı bir dönəmdə belə bir uğura imza atılması, habelə növbəti ildə Azərbaycanda III MDB Oyunlarının keçirilməsi, Gəncə şəhərinin idman paytaxtı olaraq seçilməsi, Azərbaycanın 10-dan çox şəhərində keçiriləcək yarışlar barədə xəbərin yayılması müqtədir məqamlardandır. 200-ə yaxın ölkənin bir aydan sonra Bakının ev sahibliyi etdiyi ən böyük beynəlxalq tədbir - COP29 iqlim konfransı qədər, bu qərarlar da dünya ictimaiyyətinin Azərbaycana hörmətinin əlaməti kimi dəyərləndirilə bilər.

Mühüm olan digər məqamlardan biri də 9 Mayın ümumi Qələbəmiz kimi qeyd olunması faktıdır. Bəli, Sovet xalqının 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində qələbəsinin əldə olunmasında Azərbaycanın müstəsna rolu var. İnsan amili olaraq, Azərbaycan bu müharibədə ən üst sıralarda qərar tutan ölkələrdən biri olub. Azərbaycan bu müharibəyə nəinki sıravi insanları, əsgər ordusu, öz şairi, yazıçıları ilə də qoşulub. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Gələn il 80 illiyi qeyd olunacaq qələbə təntənəsi MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığında, həmçinin "yeni dünya savaşı təhlükəsinə qarşı bütün xeyirxah insanların birliyinin möhkəmləndirilməsində" mühüm amildir.

Azərbaycan hər zaman əməkdaşlığa əhəmiyyət verməsi ilə seçilən ölkə olub. Onun üçün zəminində qarşılıqlı hörmət dayanan hər cür fəaliyyət qəbulolunan olub. Mahiyyətində qələbə, zəfər, sülh anlayışlarının ehtiva olunduğu hər proses Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən səvərək qoşulduğu və icra etdiyi işlərdir. Çünki, o, nəinki ölkəsinin, bütün dünyanın yaxşılığını düşünən və qayğısına qalan liderlər sırasında qərar tutan böyük siyasətçidir! Prezident İlham Əliyevin cari ilin 8 oktyabr tarixində Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında çıxışı bunun növbəti təzahürü kimi dəyərlidir.



**ELNARƏ AKİMOVA**
**Milli Məclisin deputatı, filologiya elmləri doktoru**

# Nümunəvi və təşəbbüskar ölkə...

## Bakıda keçirilən Pre-COP29 tədbirində Azərbaycanın planetin ekoloji təhlükəsizliyinə verdiyi töhfə yüksək dəyərləndirilib

Oktyabrın 10-da Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Tərəflərin İlkin Konfransı (Pre-COP29) keçirilib. COP29-a hazırlıq prosesinin mühüm platforması hesab edilən bu tədbirdə iqlim sammitində iştirak edəcək ölkələrin ekologiya nazirləri təmsil olunub. Tərəflər COP29-la bağlı görülən işlər və qarşıda duran məsələləri müzakirə edib, məsləhətləşmələr aparıblar.

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev bildirib ki, COP29 Sədrliyi tərəfindən 14 əsas təşəbbüs irəli sürülüb. Həmin təşəbbüslərin müəyyən olunması zamanı dünya ictimaiyyətinin gözləntiləri nəzərə alınıb və aktual problemlərə diqqət yetirilib. Azərbaycan ev sahibi olaraq qısa müddət ərzində təşkilatı işlərin böyük hissəsini yekunlaşdırıb, COP29 Sədrliyinin ofisi formalaşdırılıb, həmçinin COP29 Azərbaycan Əməliyyat Şirkəti təsis edilib. Bakı Olimpiya Stadionu əsas tədbir məkanı olaraq seçilib. Tədbirlərin Bakı Olimpiya Stadionu ilə yanaşı, digər məkanlarda da keçirilməsi istisna olunmur. Tədbir ərazisi iki zonadan ibarətdir. Bunlardan biri BMT üçün nəzərdə tutulan mavi zona, digəri isə iqlim ictimaiyyəti və şirkətlərin cəlb olunacağı yaşıl zonadır.

### Cənub-Şərqi Asiyadan ABŞ-a qədər...

Azərbaycan qlobal iqlim dəyişiklikləri ilə mübarizəni ümumi strateji məqsədlərindən biri hesab edir və qarşısına qoyduğu vəzifələri layiqincə yerinə yetirməkdədir. Ölkəmiz hələ iqlim sammitinə namizədliyinin irəli sürülməmişdən əvvəl COP sammitlərində də fəal iştirak edib, özünün təşəbbüskarlığı ilə seçilib, karbon-dioksid (CO2) emissiyasının azaldılması üçün beynəlxalq koalisiyanı daha sıx əməkdaşlığa dəvət edib. Həmçinin, İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tamhüquqlu üzvü kimi istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənməsi, milli məlumatların hazırlanması kimi öhdəlikləri də tam şəkildə yerinə yetirib.

Respublikamız qlobal ekoloji mühiti də daim izləyərək müvafiq təhlillər aparıb, COP28-dən sonrakı ilk altı ay ərzində 41 milyard dollara çatan ekstremal hava şəraitinin iqtisadi nəticələrini qlobal alyansla müzakirə edərək təxirəsalınmaz tədbirlər planının hazırlanmasını təklif edib. Hazırda "Yaqi" tayfunundan əziyyət çəkən Cənub-Şərqi Asiya ölkələrinin, habelə "Milton" qasırğasının ağır təsirlərinə məruz qalan ABŞ-ın üzləşdiyi bu fəlakətlərin qarşısının alınmasında öz təşəbbüslərini ortaya qoyur. Bu baxımdam ölkəmiz COP29-a Sədrliyi dövründə planetin ekoloji təhlükəsizliyi naminə ambisiyaları artırmaq və fəaliyyətləri gücləndirməyə yönəlmiş baxışı ilə diqqəti cəlb edir.

### COP-un Şəffaflıq Platforması Bakıda təsis edilib

Ölkəmiz, həmçinin rəsmi prosesə əlavə olaraq COP29 Fəaliyyət Proqramını əlavə etməklə COP ailəsində öz yeni yanaşmalarını da təqdim etməkdədir. Builki COP-un əsas mövzusu həm də iqlim maliyyələşməsinin təmin olunmasıdır. Bu məsələ ötən illər ərzində öz həllini tapmayıb, iştirakçı ölkələr tərəfindən müxtəlif fikirlər fonunda fərqli maliyyə sxemləri təklif olunub, maliyyəni verən və qəbul edən tərəflərin konsensusu formalaşmayıb. Digər problem maliyyənin şəffaflığı ilə bağlıdır, çünki iqlim maliyyəsi onun şəffaf mexanizmlərə söykənməsini tələb edir. Bu konteksdən tərəflər arasında maliyyənin bölünməsi və maliyyə resurslarının cəlb edilməsində açıqlıq, hesabatlılıq əsas şərtdir. Ötən COP sammitlərində tərəflər bu məsələdə bir araya gələ bilməsə də , Azərbaycanın Sədrliyi dövründə şəffaflıq prinsipi mövzusu da həllini tapıb, "Bakı Qlobal İqlim Şəffaflığı Platforma"sı təsis edilib. Platforma çərçivəsində kommersiya tərəfi olan ölkələr noyabrda keçiriləcək 29-cu sessiyaya qədər öz şəffaflıq hesabatlarını təqdim edəcəyini bildirib.




### Azərbaycan COP-un maliyyə təsisatını da formalaşdırıb

Respublikamızın səyi ilə aparılan səmərəli danışıqlar və diplomatik uğurların nəticəsində iqlim maliyyəsi siyasətini koordinasiya edəcək beynəlxalq təsisat - İtki və Zərərə cavab verən Fondun maliyyə büdcəsi də formalaşdırılıb. Həmin Fondun yaradılması barədə qərar COP27 sammitində qəbul olunsa da, 2 il ərzində heç bir addım atılmayıb. Ancaq Azərbaycanın iradəsi sayəsində qlobal iqlim dəyişmələri ilə bağlı mübarizə tədbirlərində həlledici rol olan maliyyələşmə mexanizmi də cari ildə təmin edilib.

Göründüyü kimi Azərbaycan bu sammitə daha məsuliyyətlə və xüsusi təşəbbüskarlıqla hazırlaşır. Bunu BMT Baş katibinin müavini Əminə Ceyn Məhəmməd də bəyan edib. O, Pre-COP29 tədbirində çıxışı zamanı bildirib ki, Azərbaycanın məsuliyyətli ölkə kimi üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirərək beynəlxalq iqlim çağırışları ilə bağlı ümumi razılaşmaların əldə olunmasına töhfə verir, eyni zamanda nümunəvi modelləri ortaya qoyur.

COP29-un İqlim şəffaflığı üzrə yüksək səviyyəli həmkarı, İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsu Françesko Korvaro isə qeyd edib ki, Azərbaycanda mühüm bir platformanın əsası qoyuldu, tərəflər maliyyələşmə mexanizmi həll edildikdən sonra şəffaflığa xüsusi diqqət ayırmalı və ehtiyacı olan bütün tərəflərə kömək etməlidir.

### Qlobal Cənub və Şimal arasında körpü...

COP29 çərçivəsində ölkəmiz beynəlxalq və yerli şirkətlərin bərpa olunan enerji mənbələrinin inkişafı və istifadəsinə təşviqini də sürətləndirib, müxtəlif iqtisadi stimullar, vergi-gömrük güzəştləri, digər innovativ yenilikləri tətbiq etməklə biznes koalisiyasını günəş və külək enerjisi, "yaşıl hidrogen" və s. enerji mənbələrinin istehsalı və nəqlinə səfərbər edib. Mövcud imkanlar düzgün və səmərəli şəkildə qiymətləndirərək hazırlıq çərçivəsində "yaşıl texnologiyalar"a, "yaşıl enerji"yə keçid istiqamətində də çoxplanlı işlər sayəsində qlobal "yaşıl enerji" həmrəyliyi inkişaf etdirilib və xarici tərəfdaşlarla çoxsaylı memorandumlar imzalanıb. Dünyanın bir çox ölkələri və beynəlxalq təşkilatlarla qurulmuş səmərəli əməkdaşlıq sayəsində "yaşıl enerji" layihələrində sərmayə tərəfdaşlığı da təmin olunub. Cari ilin ötən 9 ayı ərzində böyükhəcmli "yaşıl sərmayələr"ə dair açar sazişləri imzalanıb, xüsusilə də körfəz ölkələrindən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri ilə bərpa olunan enerji sektorunda böyükhəcmli sərmayə layihəsinin əsası qoyulub. Təkcə "Masdar şirkəti ilə dəyəri 1 milyard dollar olan 3 saziş imzalanıb. Ümumilikdə, "yaşıl sərmayələrin" həcmi 2,5 milyard dollara çatıb.

Həmçinin, "ACWA Power" şirkətləri ilə SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Ötən həftə SOCAR və bp arasında Cəbrayıl rayonunda "Şəfəq" layihəsinin icrasına dair saziş imzalanıb. Bundan başqa, digər investorlar - "BP", "Fortescue Future Industries", "China Gezhouba Group", "Total Energies", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digər şirkətlərlə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb.

### Xarici ölkələr və beynəlxalq maliyyə institutları ilə "yaşıl sərmayə" anlaşmaları...

Azərbaycan COP29 ili çərçivəsində beynəlxalq maliyyə institutları ilə iqlim həlləri üzrə də intensiv əlaqələri artırıb, ətraf mühitin qorunmasını təşviq edən müxtəlif layihələrlə bağlı faydalı müzakirələr aparılıb, bu sahəyə sərmayələrin cəlb edilməsində razılıqlar əldə olunub. Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) da COP29 və "yaşıl hidrogen" istehsalında Azərbaycana öz maliyyə dəstəyini göstərəcəyini bəyan edib. DB Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri, "yaşıl hidrogen" və sahələrə investisiyalara açıq olduğunu bəyan edib. Avropa Bankı da bərpa olunan enerji və regional "yaşıl enerji" dəhlizinin həyata keçirilməsində maliyyə donorluğuna razılıq verib. AYİB isə 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb.

### Etimadın növbəti nümunəsi...

Respublikamız bərpa olunan enerjinin ixracının reallaşması istiqamətində qətiyyətli addımlar atıb, ilk yaşıl ixrac kabelinin hüquqi-iqtisadi əsası qoyulub, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Bu, enerji layihəsinin digər predmetləri yekunlaşmaq üzrədir və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" adlanan layihəyə əsasən, Avropaya "yaşıl enerji" ixracı gerçəkləşəcək. Azərbaycan bununla Bakı-Tbilisi-Ceyhan neft, TAP qaz kəmərlərinin ardınca, Avropada yeni enerji dəhlizinin müəllifinə çevriləcək.

Prezident İlham Əliyevin vurğuladığı kimi bizim üçün bu, bizim üçün misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. "Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq".

Azərbaycanın xarici tərəfdaşlarla əməkdaşlığı Pre-COP29 çərçivəsində imzalanmış sazişlərə daha da güclənib. Belə ki, Braziliya və ölkəmiz arasında iqlim tərəfdaşlığı üzrə Anlaşma Memorandumu imzalanıb ki, bu sənəd tərəflərin birgə iqlim hədəflərinin inkişaf etdirilməsini nəzərdə tutur. Belə ki, COP29-a Sədrlik edən Azərbaycan estafeti COP30-a ev sahibliyi edəcək Braziliyaya təhvil verdikdən sonra qlobal iqlim təşəbbüslərinin və dayanıqlı inkişafın təşviqi sahəsində birlikdə addımlar atacaq. Bu, Azərbaycana olan növbəti etimadın nümunəsidir.

***ELBRUS CƏFƏRLİ***

# Daha çox kredit və dəstək ...

## İpoteka və Kredit Zəmanət Fondunun kredit portfelinin artırılması vətəndaşların və biznesin maliyyə təminatını artıracaq

Prezident İlham Əliyevin oktyabrın 9-da imzaladığı müvafiq fərmana əsasən, İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsində dəyişiklik edilib. Fondun nizamnamə kapitalı 87,7 milyon manat artırılaraq 1 milyard 68 milyon manata çatdırılıb. Beləliklə, dövlət büdcəsindən güzəştli ipoteka kreditlərinin maliyyələşdirilməsi üçün əlavə 87 milyon manatın ayrılması mümkün olacaq.

İlk növbədə onu qeyd edək ki, son illərdə İpoteka və Kredit Zəmanət Fondunun nizamnamə kapitalının artırılması ilə bağlı qərarlar verilməkdədir və siyasət sayəsində dövlət büdcəsindən əlavə maliyyə təminatları yaradılır. Nizamnamə kapitalının artırılması isə ipoteka ilə əhatə olunan sahələrin və şəxslərin miqyasının artırılması üçün yeni fürsət deməkdir. Belə ki, biznes və sadə vətəndaşların daha çox ipoteka kreditlərinə çıxışı üçün maliyyə bazası genişlənir ki, nəticədə ipoteka alanların sayı da çoxalır. Əlalxüsus da güzəştli şərtlərlə kredit əldə edənlər üçün imkanlar artır və bu maliyyə təchizatı öz növbəsində iqtisadi və sosial təyinatlı kreditlərin portfelini genişləndirir.

### Nizamnamə kapitalının artırılması vətəndaşlar üçün hansı əhəmiyyət daşıyır?

İpoteka kreditləri sosial məzmun daşımaqla vətəndaşların mənzil kreditləri əldə etməsini motivasiya edir və bu sahədə əlçatanlığı möhkəmləndirir. Qeyd edək ki, indiyədək fond tərəfindən 51 min 778 ipoteka krediti verilib ki, kreditlərin cəmi məbləği 3 milyard 249 milyon manatdan çoxdur. Həmin vəsaitlərin əhəmiyyətli hissəsi isə mənzil kreditlərinə yönəldilib. 2024-cü ilin yanvar-sentyabr aylarında fondun vəsaiti hesabına 365,6 milyon manat ipoteka krediti verilib ki, onun da 66,5 milyon manatını güzəştli ipoteka kreditləri təşkil edir. İlin əvvəlindən adi ipoteka kreditləri hesabına 3017, güzəştli ipoteka kreditləri hesabına isə 844 ailə özünün mənzil şəraitini yaxşılaşdırıb.2024-cü ilin ötən dövründə verilmiş ipoteka kreditlərinin orta məbləği 94 683 manat təşkil edib.

Ümumilikdə indiyədək fondun vəsaiti hesabına 3,2 milyard manat dəyərində ipoteka krediti verilib ki, bu da 51710 ailənin mənzil şəraitini yaxşılaşdırmasına imkan verib. Bu kreditlərin 931 milyon manatdan çoxu dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edir. İpoteka kreditlərindən faydalananların 67 faizi gənclər və gənc ailələrdir.

### Kreditlərin kiçik və orta biznes üçün hansı faydaları var?

İpoteka kreditlərinin digər mühüm prioriteti biznesin maliyyə təminatını yaxşılaşdırmaqdır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırılmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən yeni maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqları İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) həvalə edilib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırır. Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirilməsi təmin edilib.

2024-cü il oktyabrın 1-nə olan məlumata görə, indiyədək müvəkkil banklar tərəfindən İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) zəmanəti ilə sahibkarlara güzəştli şərtlərlə 500 milyon manatdan artıq kredit verilib ki, bunun da 65 milyon 155 min manatı yanvar-sentyabr aylarını əhatə edir. Bu mexanizm çərçivəsində bugünədək zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, İKZF tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki faiz dərəcəsi 6 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.



### Fondun dəstəyi sayəsində 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulur

Zəmanətli kreditlərin yönəldildiyi əsas sahə sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesidir. Digər əsas sahələr isə tikinti, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələr, maşın və avadanlıq istehsalı, ticarət və xidmət sektorlarıdır. Biznesə kredit zəmanətinin verilməsi sahibkarlığın maliyyələşdirilməsinə, ölkə iqtisadiyyatının inkişafına, yeni iş yerlərinin açılmasına, sahibkarlıq sahələrinin genişlənməsinə və dövlət büdcəsinə vergi daxilolmalarının artmasına səbəb olur. Zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayılan kreditlər vasitəsilə maliyyələşən layihələrdə 6500 yeni iş yerinin yaradılması nəzərdə tutulub.

Hazırda fond 17 müvəkkil təşkilatı vasitəsilə sahibkarların manatla aldıqları kreditlər üzrə zəmanətlərin və kredit öhdəlikləri üzrə subsidiyaların verilməsini həyata keçirir.

### Kredit zəmanətinin kəmiyyət və keyfiyyətinin yaxşılaşdırılması...

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsalyönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, "yaşıl", rəqəmsal inkişaf və innovasiyayönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

Anoloji təcrübə və ölkədə formalaşmış kredit zəmanət mexanizminin təhlili göstərir ki, mexanizm kiçik və orta biznes sahəsində maliyyələşdirilməni asanlaşdırır, bank və digər kredit resurslarından fəal istifadə etməyə imkan yaradır kredit risklərinin azaldılmasına səbəb olur.

Bu baxımdan fondla sahibkarlar arasında maliyyə vasitəçiliyinin daha da yaxşılaşdırılması üçün yeni inkişaf konsepsiyası hazırlanıb. Qarşıdakı strateji dövr ərzində kredit mexanizminin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması, resurs əhatəliliyinin və təqdim edilən kredit çeşidlərinin artırılması hədəf kimi müəyyən edilib.

Beləliklə, Kredit Zəmanət Fondunun kredit portfelinin artırılması həm ipoteka kreditləri almaq istəyən vətəndaşlar üçün əlavə maliyyə resuslarının formalaşmasına, eyni zamanda, kiçik və orta biznesin dayanıqlı maliyyə ehtiyaclarının təmin edilməsinə səbəb olacaq.

***E.CƏFƏRLİ***

# Xalqımızı birləşdirən dəyər...

## Azərbaycançılıq milli ideologiyamızın özəyidir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

1991-ci ildə dövlət müstəqilliyimiz bərpa edilsə də, ölkəmiz özünün istiqlalını, varlığını itirmək təhlükəsi ilə üz-üzə idi. Lakin 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə Azərbaycanı düşdüyü vəziyyətdən xilas etdi. Bu xilaskarlıq missiyasının kökündə müasir azərbaycançılıq ideologiyası durur. Heydər Əliyevin bütün həyatı boyu inandığı, dəstəklədiyi, formalaşdırdığı, vahid amala çevirdiyi, xalqı bu amal ətrafında birləşdirdiyi azərbaycançılıq ideologiyası...

Həqiqətən də azərbaycançılıq dövlətimizin milli ideologiyasının özəyini, əsasını təşkil edir. Eyni zamanda dövlətçilik, milli dəyərlər, ümumbəşəri dəyərlər kimi qlobal məsələlər azərbaycançılığın tərkib hissələri kimi verilir. Bu ideologiyamızın əsasında Azərbaycanı özünə Vətən sayan bütün xalqların milli, etnik, dini və sosial hüquqlarının bərabərliyi dayanır. Təbii ki, zaman-zaman azərbaycançılıq ideologiyası haqqında fikirlər irəli sürülüb, məqalələr yazılıb, araşdırmalar aparılıb. Bütün buların fonunda Azərbaycanın dövlət müstəqilliyini qazandığı, müasir dünya ilə çoxşaxəli ələqələrini qurub inkişaf etdirdiyi dövrdə azərbaycançılıq ideologiyasının iqtisadi, sosioloji və politoloji aspektləri diqqəti daha çox cəlb edir.

**Milli dövlətçilik ideologiyası...**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, azərbaycançılıq ideologiyası ayrı-ayrı şəxslərin düşüncə və duyğularına hakim kəsilən təsəvvürlərin məcmusunu, onların özlərinin, ailələrinin, xalqının, Vətəninin sabahı naminə arzularını əks etdirir. Deputat qeyd edib ki, milli ideologiya dövləti yaradır, dövlət isə siyasi ideyanı məqsədyönlü istiqamətə yönəldir: "Azərbaycançılıq ideologiyasında vətənpərvərlik amili də mühüm yer tutur. Vətənpərvərlik insanı öz dövləti ilə sıx



bağlayır. Bu hiss hər bir fərdi öz torpağına, Vətəninə sahib çıxmağa səsləyir. Gənc nəsli azərbaycançılıq ideologiyası ətrafında birləşdirmək isə onları dövlətçilik və milli-bəşəri dəyərlər əsasında tərbiyə etmək deməkdir. Bu prinsiplər gəncliyi dünəndən bu günə və bu gündən sabaha doğru aparır".

**Vətəndaşlıq məsuliyyətini gücləndirən ideologiya**

Deputat qeyd edib ki, azərbaycançılıq ideologiyasının yaşaması vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətindən asılıdır: "Vətəndaşlıq məsuliyyəti azərbaycançılıq ideologiyası kontekstində geniş anlayışdır. O özündə hüquqi və mənəvi məsuliyyəti cəmləşdirir. Lakin vətəndaşlıq məsuliyyəti daha çox mənəvi məsuliyyətlə bağlıdır. Bu baxımdan azərbaycançılıq ideologiyası həm də vətəndaş məsuliyyətinin güclənməsinə xidmət edir. Hər bir kəs cəmiyyət qarşısında cavabdehliyini hiss etməlidir. Bu, tək qanunlara riayət etməkdə yox, habelə aktiv vətəndaşlıq mövqeyində əks olunmalıdır. Ona görə ki, cəmiyyətin və dövlətin inkişafı və güclənməsi hər bir fərdin fəal vətəndaşlıq mövqeyindən və vətəndaşlıq məsuliyyətindən asılıdır.

Azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapıb. İdeologiya kimi, azərbaycançılıq müstəqil ölkəmizin fəlsəfi-sosial doktrinasının sosial-mənəvi və etnik-geosiyasi cəhətlərini özündə birləşdirib. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərliyin əsasını təşkil edir".

**İnkişafımızın ideya təməli...**

Deputatın sözlərinə görə, hazırkı dövrə gəlincə qeyd etməliyik ki, azərbaycançılıq bu gün cəmiyyətin inkişafının ideya təməlini təşkil edir. Bu da səbəbsiz deyil: "Çünki bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlar qazanan Azərbaycan Respublikası məhz Ulu Öndərin əsasını qoyduğu ideologiya və strategiya əsasında inkişaf edir. İlham Əliyev azərbaycançılıq məfkurəsini dövlətçiliyimizin ideoloji əsası kimi xarakterizə edərək deyib: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olub. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Bir sözlə, azərbaycançılıq ideologiyasının çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli-ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir. Hazırda bu proses uğurla davam edir.

***Yeganə BAYRAMOVA***

# Bələdiyyələr birləşdiriləcək?

## Yerli özünüidarə strukturlarında islahatlar gözlənilir

**Azərbaycanda bələdiyyələrin fəaliyyəti ilə bağlı mütəmadi islahatlar aparılır. Qanunvericilik təkmilləşdirilir, fəaliyyətin daha dinamik və optimal şəkildə həyata keçirilməsi üçün addımlar atılır. Qeyd edək ki, bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyənin öz mülkiyyəti və yerli büdcəsi olur - struktur Azərbaycan Respublikasının Konstitusiyası, eyni zamanda "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyasında keçmiş postsovet məkanı üçün tamamilə yeni olan hüquqi təsisat - yerli özünüidarə orqanları, qeyri-dövlət təşkilatı olan bələdiyyələr institutu təsis edilib. Konstitusiyanın 142-ci maddəsində bələdiyyələrin formalaşması və hüquqları müəyyən olunur. Ölkəmizdə ilk bələdiyyə seçkiləri 1999-cu il dekabrın 12-də baş tutub. 1999-cu ildə bu struktur yaradılarkən ölkədə 2669 bələdiyyə fəaliyyət göstərdiyi halda sonradan onların sayı artaraq 2757-yə çatıb. Sonradan bələdiyyələrin birləşməsi nəticəsində bu say əvvəlcə 1766-ya, daha sonra isə 1606 düşüb.**

### Yeni qanun layihəsi...

Bununla belə, yerli özünüidarə strukturu ilə bağlı yenidən islahatlar nəzərdə tutulur. Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov KİV-ə açıqlamasında Azərbaycanda bələdiyyələrin birləşməsi ilə bağlı qanun layihəsinin hazırlanacağını bildirib. Layihə çərçivəsində bələdiyyələrin sayının üçdə birinin azaldılması nəzərdə tutulur. Beləliklə, ölkə üzrə bələdiyyələrin sayı 500-dən artıq olacaq. Siyavuş Novruzovun sözlərinə görə, bəzi ərazilərdə əhalinin sayına baxmayaraq, çox sayda bələdiyyə fəaliyyət göstərir. Elə yerlər var ki, 60-70 nəfər əhali yaşayır, lakin orada bələdiyyə qurulub. Bu bələdiyyələr vergi yığmaqda, digər funksiyalarını yerinə yetirməkdə çətinlik çəkirlər. Bu səbəbdən, bələdiyyələrin birləşdirilməsi məsələsi gündəmdədir. Yeni qanun layihəsinin qəbulundan sonra, bələdiyyələrin fəaliyyətinin daha səmərəli olması və idarəetmənin optimallaşdırılması gözlənilir.



Qanun layihəsində əhalinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyələr onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə digər bələdiyyələrlə birləşdiriləcək.

### Bələdiyyələrin birləşdirilməsi müsbət nəticəsini verəcək

Məsələ ilə bağlı fikirlərini bölüşən Regional məsələlər komitəsinin üzvü Tahir Rzayev bildirib ki, kiçik bələdiyyələr maliyyə bazası olmayan yerli idarəetmə orqanları kimi özlərini doğrultmurlar. Onun sözlərinə görə, kiçik bələdiyyələrin fəaliyyəti vətəndaşları qane etmir və bələdiyyələr haqqında mənfi fikir formalaşır: "Bir çoxları deyir ki, bu qurum əhəmiyyətsiz, heç bir işə yaramayan qurumdur və ləğv olunmalıdır. Əslində, bələdiyyələr bu günümüz üçün vacib olan demokratik təsisatdır. Ancaq onların fəaliyyəti təkmilləşdirilməlidir".



Milli Məclisin üzvü əlavə edib ki, bugünədək ölkədə bələdiyyələrin birləşməsi, ləğv edilməsi prosesi baş verib: "Bu islahatların müsbət nəticələrinin də şahidi olmuşuq. Ancaq hələ də onların sayı çoxdur. Əhalisi Azərbaycan qədər olan bir sıra ölkələr var ki, orda 250-300 bələdiyyə fəaliyyət göstərir. Əgər bu gün hər hansı bir kənddə fəaliyyət göstərən bələdiyyə heç bir maliyyə bazasına malik olmayan, yerli əhəmiyyətli sosial-iqtisadi məsələləri həll edə bilmirsə, demək ki, onun fəaliyyətinin də effekti olmayacaq. Hesab edirəm ki, bələdiyyələrin sayının azaldılması ilə bağlı irəli sürülən təkliflər müsbətyönlüdür və məqsədəuyğundur. Biz bu il ölkə olaraq bələdiyyə seçkilərinə gedirik. Əlbəttə, bu prosesin baş verməsi seçkilərdən sonra daha yüksək səviyyədə və optimal fəaliyyətə malik bələdiyyələrin formalaşmasına yol açacaq. Düşünürəm ki, Azərbaycanda da sözügedən proses, bələdiyyələrin birləşdirilməsi müsbət nəticəsini verəcək".

***S.İSMAYILZADƏ***

# "Şimal-Cənub" dəhlizi iqtisadi rifaha yönəlib

## MDB ölkələri iqtisadi əlaqələri yüksəltmək üçün nəqliyyat-tranzit imkanlarını da artırmağı vacib sayır

**Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının iclasında ölkələr arasında ticarət-iqtisadi əməkdaşlığın artmasında nəqliyyat-tranzit dəhlizlərinin rolu da xüsusi olaraq yüksək dəyərləndirilib. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev bildirib ki, "Bir kəmər, bir yol" tranzitinin mühüm tərkib hissəsi olan Trans-Xəzər marşrutu (Orta Dəhliz) ilə bərabər, "Şimal-Cənub" dəhlizində sinxron daşınmaların həyata keçirilməsi, əlavə logistik imkanların birləşdirilməsi birlik ölkələri arasında iqtisadi əlaqələrin dinamikasına da müsbət təsir göstərməkdədir. Onun fikrincə, bu, qlobal layihələrdə iştirakçı dövlətlərin öz nəqliyyat sistemlərini birləşdirməsi dəhlizlərdə yüksək keyfiyyətli sinxronlaşdırmanı təmin etməklə, Avrasiya qitəsində iqtisadi, institusional və nəqliyyatın vahid inkişaf konsepsiyasını yaratmağa imkan verəcək. Tokayev Qazaxıstanın beynəlxalq marşrutlar üzrə dəmiryolu infrastrukturunun genişləndirilməsinə başladığını bildirərək digər MDB dövlətlərinin bu istiqamətdə gördüyü işləri təqdir edib, eyni zamanda, birlik ölkələrinin ərazilərindən keçən əsas nəqliyyat arteriyalarının birləşdirilməsi konsepsiyasının hazırlanmasını təklif edib.**

### Qazaxıstanın təklifləri nəyi nəzərdə tutur?

MDB-nin digər üzv ölkələri də Qazaxıstanın dövlət başçısının bu təşəbbüsünü dəstəkləyərək qlobal nəqliyyat qovşaqlarında birgə əməkdaşlığın, o cümlədən son 2 ildə dayanmadan daşıyıcılıq gücü artan "Şimal-Cənub" dəhlizinin ötürücülük qabiliyyətinin yüksəldilməsinə əlavə modernləşdirmə işlərinin vacibliyinə toxunublar.

Qeyd edək ki, Qazaxıstan bir müddət əvvəl Mərkəzi Asiya ölkələri üçün də xüsusi maraq doğuran "Şimal-Cənub" dəhlizi ilə əlverişli daşınma rejiminin təşkili üçün tranzit tariflərinə də yenidən baxılmasını təklif edib. Ötən ay Bakıda dəmir yolu administrasiyalarının rəhbərlərinin, beynəlxalq yük daşıyıcıları assosiasiyalarının nümayəndələrinin, eləcə də logistika şirkətlərin rəhbərlərinin görüşündə bu dəhlizdə güzəştli ticarət rejiminin yaradılması təşəbbüsü irəli sürülüb. Eyni zamanda, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması, daha açıq və hesabatlı tranzit formatının təşkili məqsədilə rəqəmsal platformanın qurulması təklif olunub. Nəzarət-buraxılış məntəqələrində yoxlamalar, nəqliyyat vasitələrinin keçidində ləngimələr dəhlizin işinə təsir etdiyindən gözləmə müddətinin azaldılması istiqamətində əlavə tədbirlərin görülməsinə ehtiyac duyulur.




### Rusiya, Azərbaycan və İranın yeni planları...

"Şimal-Cənub" dəhlizinin ən mühüm quru hissəsi Rusiya, Azərbaycan və İrandan keçir və hər 3 ölkə bu marşrut xəttinin tamamilə modernləşdirilməsində və digər kənar nəqliyyat qovşaqları ilə birləşməsində maraqlıdır. Rusiya və Azərbaycan, eyni zamanda, "Şimal-Cənub" marşrutunun "Trans-Xəzər" bölməsi ilə yük daşımalarının artırılması istiqamətində də fəal iş aparır. Məqsəd bu nəqliyyat dəhlizinin gücünü daha da artırmaq, Xəzər klasteri zonasında bütün obyektlərin, xüsusilə liman infrastrukturu və konteyner qovşaqlarının əlaqələndirilməsi ilə geniş bir dəniz yükdaşıma sisteminin yaradılmasıdır.

Yeni modernizasiya planına əsasən, Azərbaycan və Rusiya "Ulyanovsk-Bakı-Astara" birbaşa yük blok qatarının marşrutunu da istifadəyə hazır vəziyyətə gətirməkdədir ki, bu nəqliyyat xətti də "Şimal-Cənub" dəhlizi ailəsinin tərkib hissəsidir. "Ulyanovsk- Bakı - Astara" marşrutu "Orta Volqa - Xəzər dənizi - Fars körfəzi" logistika layihəsinin qərb dəmir yolu dəhlizi hesab edilir və aqrar-sənaye, o cümlədən ağac emalı məhsullarının daşınmasını nəzərdə tutur. Bundan başqa, Azərbaycan və İran dəmir yollarının birləşdirilməsi istiqamətində fasiləsiz addımlar atmaqdadır. Cənubdan daxil olan yük axınlarını qarşılamaq üçün İran və Azərbaycan öz dəmir yollarını tam birləşdirməyi və bu məqsədlə 167 km uzunluğunda Astara-Rəşt dəmir yolunun tikintisi nəzərdə tutur.

### İran körfəzindən Baltik dənizinədək...

Göründüyü kimi "Şimal-Cənub" nəqliyyat dəhlizi region ölkələri üçün öz strateji əhəmiyyətini daha da artırmaqdadır. Hindistandan və İran körfəzi regionundan, yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasına hesablanmış bu dəhlizə 13 ölkə qoşulmaqla bu tranzit ailəsini daha da böyütməyə çalışır. Bu dəhlizin digər marşrutlarla müqayisədə əsas üstünlüyü tranzit məsafəsinin və tranzit vaxtının iki-üç dəfə az olmasıdır ki, iştirakçı ölkələr üçün bu amil xüsusi əhəmiyyət kəsb edir. Əgər dəniz yolu ilə Helsinki şəhərinə 45-60 gün ərzində daşınma müddəti təşkil edirsə, "Şimal-Cənub"la bu müddət 20-25 gün təşkil edir. Bu baxımdan həmin nəqliyyat arteriyası dünya üçün ən əhəmiyyətli daşınma xətlərindən biri kimi aktuallığını daha da artırır.

***ELBRUS***

# Gürcüstan AP-nın hədəfində...

## Təşkilatın bu ölkəyə qarşı qətnaməsi növbəti təzyiq cəhdidir

**Gürcüstanda "Xarici təsirin şəffaflığı haqqında" qanun qəbul edildikdən sonra Qərbin bu ölkəyə təzyiqləri xeyli artıb. Buna səbəb sözügedən qanunun Qərb dairələrinin və ölkə müxalifətinin kəskin etirazlarına səbəb olmasıdır. Hətta Prezident Zurabişvilinin sənədə veto qoyması da hökumətin və parlamentin mövqeyinə əngəl ola bilməyib.**

### Qətnamədə Bidzina İvanişviliyə sanksiya, Saakaşviliyə azadlıq tələb olunur

Rəsmi Tbilisiyə qarşı növbəti təzyiq cəhdi Avropa Parlamentindən gəlib. Belə ki, bu qurum oktyabrın 9-da Gürcüstanla bağlı qətnamə qəbul edib. Avropa Parlamentinin 495 üzvü qətnamənin lehinə, 73-ü əleyhinə səs verib, 86-sı isə bitərəf qalıb. Qətnaməyə əsasən, Avropa Parlamenti Gürcüstanda demokratiyanın azalmasından dərin təəssüf hissi keçirir və Avropa İttifaqını Bidzina İvanişviliyə və Gürcüstanda demokratiyaya xələl gətirən bütün şəxslərə qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağırır. Qətnamənin mətnində Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvilinin azadlığa buraxılması və viza rejiminin liberallaşdırılması məsələsindən də bəhs edilir. Avropa Parlamenti, həmçinin Gürcüstan hökumətini Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə çağırır.

Sənəddə bildirilir ki, 2023-cü ilin dekabrında Gürcüstana Avropa İttifaqına (Aİ) namizəd statusu verilsə də, oktyabrın 26-da keçiriləcək parlament seçkilərində qalib gələcəyi gözlənilən hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyası getdikcə avtoritar gündəmi təşviq edir. Həmçinin qeyd olunur ki, Gürcüstanın yeni qanunları ölkənin seçki qanunlarına edilən dəyişikliklər və artan anti-Avropa ritorikası ilə birlikdə söz azadlığını pozur, mediaya senzura tətbiq edir, vətəndaş cəmiyyəti və QHT sektorunda tənqidi səslərə məhdudiyyətlər qoyur və həssas insan qruplarına qarşı ayrı-seçkilik yaradır. AP "hesab edir" ki, belə qanunlar ləğv edilməsə, Gürcüstanın Aİ ilə münasibətlərində irəliləyiş mümkün olmayacaq. AP deputatları "qeyri-demokratik" qanunlar ləğv edilənə qədər Aİ-nin Gürcüstan hökumətinə ayırdığı bütün maliyyə vəsaitlərinin dondurulmasını tələb edirlər.






### Daxili işlərə "həyasız müdaxilə"...

Avropa Parlamentinin bu addımı isə Gürcüstan hakimiyyətində etirazla qarşılanıb. "Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının sədri İrakli Qaribaşvili jurnalistlərə açıqlamasında bildirib ki, Avropa Parlamentinin Gürcüstanla bağlı qəbul etdiyi qətnamə ölkənin daxili işlərinə "həyasız müdaxilədir". Qaribaşvili deyib: "Bu qətnamə birinci deyil və yəqin ki, sonuncu da olmayacaq. Biz bu cür ədalətsiz qərar və ya qətnamə layihələrini çox görmüşük. Yadınızdadırsa, 2 il əvvəl ölkəyə namizəd statusu verilməyəndə, bu qərarın qəbuluna 1-2 həftə qalmış oxşar məzmunlu "mesajlarla" ədalətsiz, biabırçı qətnamə qəbul edilmişdi. O zaman da Bidzina İvanişviliyə qarşı sanksiyaların tətbiqi, Saakaşvilinin azad edilməsi, Kezeraşvilinin media meneceri kimi qeyd olunması ilə bağlı tələbləri var idi".

Onun sözlərinə görə, bu qərar iki il əvvəl qəbul edilib. "İndi seçkilərə iki həftə qalmış görürük ki, bizim radikal, müflis müxalifətimizi dəstəkləyən və müdafiə edən lobbiçilər Gürcüstan əleyhinə oxşar məzmunlu qətnamə hazırlayırlar. Bu da təbii ki, daxili işlərimizə açıq-aşkar müdaxilənin növbəti nümayişidir. Mən bunu ölkəmizin daxili işlərinə açıq-aşkar müdaxilə adlandırardım. Heç kim seçkilərə iki həftə qalmış hansısa ölkədə seçki proseslərinə belə kobud, həyasız müdaxilə, manipulyasiya və insanlara təsir cəhdini görməyib", - deyə Qaribaşvili vurğulayıb.

Hakim partiyanın icraçı katibi Mamuka Mdinaradze isə deyib ki, bugünkü müxalifət tamamilə xarici göstərişlərdən asılıdır və yalnız ölkədən kənardan alınan əmr və təlimatlarla fəaliyyət göstərir. Onun sözlərinə görə, Saakaşvili, Qvaramiya, Xazaradze və Qaxariyaya verilən hər bir səs ölkənin mövcudluğu üçün böyük təhlükədir: "Biz dəfələrlə ictimaiyyətə bildirmişik ki, bugünkü müxalifət tamamilə xarici göstərişlərdən asılıdır və yalnız ölkədən kənardan alınan əmr və təlimatlarla fəaliyyət göstərir. Onlar yalnız seçki nömrəsi və partiya loqotipləri ilə fərqlənirlər, amma məzmuna və antigürcü məqsədlərinə görə eynidirlər".

"Gürcü Arzusu-Demokratik Gürcüstan" partiyasının baş katibi, Tbilisi şəhərinin meri Kaxa Kaladze isə hesab edir ki, Avropa Parlamentinin qətnaməsinin Gürcüstan üçün heç bir dəyəri yoxdur və heç bir əhəmiyyət kəsb etmir. Onun sözlərinə görə, onlar yenə də Saakaşvilinin qeyd-şərtsiz azad edilməli olduğunu təkrar edir, Rusiyaya qarşı sanksiyalara qoşulmağı tələb edirlər. "Rusiyaya qarşı sanksiyalara gəldikdə, biz müharibənin nə olduğunu və onun nə qədər bəlalar gətirdiyini bilirik. Sanksiyaların nəyə gətirib çıxara biləcəyini də bilirik. Əgər zəif hakimiyyət olsaydıq, bəzilərindən qorxub sanksiyalara qoşulardıq və bu zaman işləyən kəndli, Gürcüstanın iqtisadiyyatı zərər çəkərdi, bəlkə də məqsəd məhz bu idi", - deyə Kaladze vurğulayıb.

### Gürcü cəmiyyəti nə baş verdiyini yaxşı başa düşür

Məsələyə ölkənin Baş naziri İrakli Kobaxidze də münasibət bildirib. Onun fikrincə, Avropa Parlamentinin qətnaməsində ədalətsizlik aydın şəkildə görünür: "Aydındır ki, müəyyən qüvvələr Gürcüstanda ikinci cəbhənin açılmaması və müharibənin başlamaması faktını qəbul edə bilmir. Bu, həmin qüvvələr üçün belə ssenarini inkişaf etdirmək məqsədilə sonuncu mübarizədir. Onlar parlament seçkilərinə ümid bəsləyirlər, məhz buna görə də Avropa Parlamentində müzakirə aparıldı, qətnamə qəbul edildi. Buna baxmayaraq, həmin qüvvələrin cəhdi sadə bir səbəbə görə uğursuzluğa düçar olacaq - gürcü cəmiyyəti ətrafımızda nə baş verdiyini və bizə qarşı fəaliyyət göstərən qüvvələrin maraqlarını yaxşı başa düşdü".

Xatırladaq ki, Gürcüstanın Qərblə münasibətlərinin gərginləşməsinə səbəb olan "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbul olunması sırf milli maraqlara yaranan təhdidlərin qarşısını almaq zərurəti ilə bağlıdır. Qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan, Gürcüstan vətəndaşı olmayan qurum və şəxslərdən əldə edən və dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər Gürcüstandakı "xarici gücün maraqlarını güdən təşkilat" kimi reyestrdən keçməli olacaqlar. Reyestrdən keçməyənləri isə maliyyə sanksiyaları gözləyir. Lakin onun normaları fiziki şəxslərə şamil edilməyəcək. Gəlirlərinin 20 faizdən çoxu xaricdən gələn qeyri-kommersiya hüquqi şəxslər və mətbuat orqanları qanunun təsir dairəsində olacaqlar. Gürcüstan hakimiyyəti verdiyi izahatlarda bildirir ki, ölkənin milli maraqları bu qanunun qəbul olunmasını zəruri edib.

### Gürcüstan təzyiqləri neytrallaşdıra biləcəkmi?

Gürcüstanı təzyiqlər altında saxlamaq istəyən Qərb dairələri isə bu qanunun guya "anti-demokratik olduğunu bildirirlər. Qanunun hələ müzakirə mərhələsində olduğu vaxtlarda gürcü müxalifətinin təşkil etdiyi mitinqlərdə, konkret olaraq may ayında Avropa İttifaqına üzv olan Litva, Estoniya, İslandiya və Latviyanın xarici işlər nazirlərinin iştirak etməsi də Qərbin açıq-aşkar təzyiqlərinin göstəricisi idi. Lakin Gürcüstan hakimiyyəti geri çəkilməyərək sözügüdən qanunu qəbul etdi. Belə bir şəraitdə ABŞ və Avropa İttifaqı Gürcüstan hökuməti ilə əməkdaşlığa yenidən baxılacağı və sanksiyaların tətbiqi ilə hədələyib. Artıq Avropa İttifaqı Gürcüstanın təşkilata üzvlük məsələsi ilə bağlı danışıqları dayandırıb. Eləcə də, Tbilisiyə bəzi maliyyə yardımlarının kəsildiyi də elan edilib.

ABŞ-da da Gürcüstana qarşı "cəza" tədbirlərinə başlanıb. Belə ki, iyul ayında ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici əlaqələr komitəsi Gürcüstana qarşı "MEGOBARI aktı"nı qəbul edib. Konqresin Xarici əlaqələr komitəsində keçirilən səsvermədə 41 konqresmen sənədi dəstəkləyib, 6-sı isə əleyhinə səs verib. Sənəddə Gürcüstanda demokratik geriləmənin olduğu, bu səbəbdən Gürcüstan hökumətinin fəaliyyətinə və onun Rusiya ilə, eləcə də "digər avtoritar rejimlərlə" əlaqələrinə nəzarətin gücləndirilməsi çağırışı edilib.

Bütün bunların fonunda Gürcüstan hakimiyyəti dövlət maraqlarını qorumaq naminə Qərbə dirəniş göstərməkdədir. Qarşıdan gələn parlament seçkiləri isə gələcək proseslərə aydınlıq gətirə bilər.

*N.BAYRAMLI*

# Zelenski sülhə ümid bəsləyir

## Bəs müharibənin qalibi kim olacaq?

Ukrayna Prezidenti Volodimir Zelenski Avropa ölkələrinə səfəri zamanı yenidən sülh planını gündəmə gətirib. O, Xorvatiyaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Andrey Plenkoviçlə uzunmüddətli dəstək və əməkdaşlıq haqqında saziş imzalayıb. Xorvatiya ilə saziş də Ukraynanın təhlükəsizliyinə dair digər sazişlər kimi 10 il müddətinə qüvvədə olacaq. Bu saziş ilə Xorvatiya müharibədə qələbə qazanana qədər Ukraynanı dəstəkləmək borcunu təsbit edir. Digər məsələlərlə yanaşı, söhbət iki ölkənin müdafiə-sənaye kompleksləri arasında əməkdaşlıqdan gedir. Ölkələr, həmçinin rəqəmsal dayanıqlıq və kibertəhlükəsizlik sahəsində qarşılıqlı əlaqələri möhkəmləndirmək və kəşfiyyat məlumatları mübadiləsi imkanlarını araşdıracaqlar. Ümumilikdə, Ukrayna artıq 20-dən çox ölkə ilə təhlükəsizlik haqqında sazişlər bağlayıb, onların arasında ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Niderland və digər Avropa dövlətləri yer alıblar.

### Münaqişə 2025-ci ildən gec olmayaraq başa çata bilərmi?

Volodimir Zelenski Xorvatiyada keçirilən Ukrayna-Cənub-Şərqi Avropa sammitində deyib ki, Ukrayna münaqişənin 2025-ci ildən gec olmayaraq başa çatmasına ümid bəsləyir: "Oktyabr, noyabr və dekabr aylarında vəziyyəti sülhə və davamlı sabitliyə doğru irəlilətmək üçün real şansımız var. Döyüş meydanındakı vəziyyət bu seçimi 2025-ci ildən gec olmayaraq başa çatdırmağa imkan yaradır". O, əlavə edib ki, Ukrayna noyabra qədər nizamlanma ilə bağlı yeni sülh konfransında təqdim olunması gözlənilən sənəd hazırlayacaq. Lakin o, konfransın nə vaxt keçiriləcəyini açıqlamayıb.

Zelenski onu da deyib ki, Ukraynanın NATO-ya dəvət edilməsi və alyansa gələcək üzvlüyü sülh yolunda real addımlar ola bilər. Bu, Avropanı maraqlandırmalıdır. "Ukraynanın NATO-da yeri varmı? Əgər bu, lazımi qaydada təsdiqlənərsə, Rusiya Avropanın sərhədləri, müstəqil dövlətləri və hər birinin öz gələcəyini seçmək hüququna malik olduğunu qəbul etməlidir", - deyən, dövlət başçısının sözlərinə görə, həqiqət budur ki, Rusiyanın bu reallığı qəbul etməsi yalnız Ukraynaya qarşı bir daha Rusiya tərəfindən müharibənin edilməyəcəyini anlamaqdan başlaya bilər.

Xatırladaq ki, Zelenskinin sülh planı 3 əsas elementdən ibarətdir. Bunlara Ukraynaya daha çox silah yardımı, Rusiyanı sülhə məcbur etmək üçün beynəlxalq miqyasda diplomatik səylər göstərmək, 2022-ci il qarşıdurmalarına görə Moskvanın məsuliyyət daşıması kimi müddəalar daxildir. Ukrayna lideri ötən ay BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfəri zamanı bu planı ABŞ prezidenti Co Baydenlə və vitse-prezident Kamala Harrislə müzakirə etmişdi.




### Kiyevin Kursk əməliyyatı, Rusiyanın ələ keçirdiyi yeni şəhərlər...

Ümumiyyətlə, Zelenskinin münaqişənin 2025-ci ildən gec olmayaraq başa çatmasına ümid bəsləməsi bir qədər təəccüblü görünür. O, bu fikrini döyüş meydanındakı vəziyyətlə əlaqələndirməyə çalışır. Nəzərə alaq ki, hazırda döyüş meydanında Kiyevin əhəmiyyətli üstünlüyü yoxdur. Ukraynanın Rusiyanın Kurs vilayətində müəyyən qədər irəliləyişi döyüş meydanındakı vəziyyəti onun xeyrinə dəyişməyib. Çünki Kiyevin bu hücumu Rusiya ordusunun Donbasda irəliləməsinin qarşısını ala bilməyib. Əksinə, Kursk əməliyyatından sonra Rusiya Ukraynanın iki şəhərini və bir sıra kəndlərini ələ keçirib. Belə olan halda, Zelenskinin müharibənin 2025-ci ildən gec olmayaraq başa çatması haqda bəyanatı real görünmür. İndiki halda, problem Rusiyanın üstünlüyü ilə başa çata bilər. Kiyevin qələbə qazanması üçünsə ona göstərilən hərbi dəstək kifayət qədər artmalıdır.

Zelenski bəlkə də, Ramştayn platorması çərçivəsində dövlət başçılarının görüşünə ümid edir. Ukrayna Müdafiə Təmas Qrupunun Almaniyanın Ramştayn hava qüvvələri bazasında təşkil olunacaq toplantısı oktyabrın 12-nə planlaşdırılmışdı. Lakin ABŞ Prezidenti Co Bayden Birləşmiş Ştatlarda tüğyan edən "Milton" qasırğası ilə əlaqədar bu görüşdə iştirakını təxirə salıb. Kansler Olaf Şolts "Ölkəmdə belə fırtınalar baş verərsə, mən də belə qərar qəbul edərdim" deyərək bu qərarı anlayışla qarşıladığını vurğulayıb.

Təmas qrupu Ukraynaya silah və sursat yardımı göstərən 50 ölkəni əhatə edir. Ramştaynda müdafiə nazirləri səviyyəsində indəyədək bir neçə toplantı keçirilib. Oktyabrın 12-də keçirilməsi nəzərdə tutulan görüş isə dövlət başçıları səviyyəsində ilk toplantı olacaqdı.

### Müharibə davam edərsə, qazanan Qərb olacaq

Avropa İttifaqına sədrlik edən Macarıstanın Baş naziri Viktor Orban isə Avropa Parlamentində çıxışı zamanı deyib ki, Aİ Kiyevin müharibədə məğlubiyyətini istəmirsə, Ukrayna ilə bağlı strategiyasını dəyişməlidir: "Avropa İttifaqı Ukraynada müharibə ilə bağlı yanlış siyasət aparır. Əgər biz qalib gəlmək istəyiriksə, bu uğursuz strategiyanı dəyişməliyik". O, Avropa İttifaqını münaqişənin həlli üçün səy göstərməyə çağırıb: "Əgər bunu etməsək, müharibəyə daha çox cəlb olunacağıq və vəziyyət daha çıxılmaz olacaq. Biz müzakirə apararkən yüz minlərlə insan öləcək". Bir müddət öncə Viktor Orban bütün Avropa ölkələrinin tezliklə Ukraynadakı münaqişənin sülh yolu ilə həlli üçün çalışacağını da demişdi.

Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Leyen isə Macarıstanın baş naziri Viktor Orbanla debatda onun Ukraynadakı münaqişənin həlli istiqamətindəki səylərini sərt şəkildə tənqid edib. Xanım Leyen deyib ki, Kiyevə nəyin bahasına olursa-olsun bütün sahələrdə dəstəyin davam etdirilməsi vacibdir. O, Ukraynanı dəstəkləmək zərurətindən danışaraq, Macarıstanın təşkilatdakı sədrliyini tənqid edib. "Ukrayna və Avropada ədalətli sülhə nail olmağın yeganə yolu var. Biz Ukrayna müqavimətini gücləndirməyə davam etməliyik, ona siyasi, maliyyə və hərbi dəstək verməliyik", - deyə fon der Leyen bildirib. Onun fikrincə, avropalılar Ukraynanın Moskva ilə münaqişədə təslim olmasını istəmirlər.

Görünən odur ki, Qərb bu müharibənin davam etməsində maraqlıdır. Çünki müharibədə nə Rusiya, nə də Ukrayna qazanmayacaq. Belə davam edərsə, qazanan yalnız Qərb olacaq.

*N.BAYRAMLI*

# Son debat... Olmayacaq!

## Tramp-Harris duelinin növbəti raundu reallaşmayacaq

Noyabrda ABŞ-da keçiriləcək prezident seçkilərində rəqib olan Donald Tramp və Kamala Harrisin sentyabrın 10-da "ABC" kanalı tərəfindən Pensilvaniya ştatının Filadelfiya şəhərində təşkil olunmuş teledebatı böyük marağa səbəb olmuşdu. Canlı yayımda 67 milyondan çox insanın izlədiyi debat sonradan sosial mediada yüz milyonlarla baxış yığmışdı. Bu isə, seçkiyə qədərki müddətdə yeni bir debatın reallaşmasına ümid yaradırdı. Hətta ilk debat başa çatdıqdan dərhal sonra Harrisin seçki qərargahının nümayəndəsi ikinci tura hazır olduqlarını elan etmişdi. Amma...

### Tramp imtina etdi...

Deyəsən, debatın növbəti turu baş tutmayacaq. ABŞ-ın keçmiş prezidenti və Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp hazırkı vitse-prezident Kamala Harrislə yeni debatda iştirakdan imtina edib. Prezidentliyə namizəd bu barədə "Truth" sosial şəbəkəsindəki səhifəsində yazıb. Onun sözlərinə görə, debat keçirmək üçün artıq gecdir. "Proses artıq həddən artıq uzağa gedib, səsvermə artıq başlayıb - revanş olmayacaq!", - deyə o vurğulayıb.

"Mən Fox News-un sentyabrın 4-də Kamala ilə debat dəvətini qəbul etdim, lakin o, rədd etdi" - deyə Tramp yazıb. Siyasətçinin sözlərinə görə, Harris Co Baydenin siyasətini davam etdirəcəyini açıq şəkildə ifadə edib və bu, hazırkı vitse-prezidentlə sonrakı debatları mənasız edir. Bundan əlavə, Donald Tramp qeyd edib ki, hazırda səsvermədə irəlidədir və onunla rəqibi arasındakı məsafə günü-gündən artmaqdadır.

Xatırladaq ki, "Fox News" telekanalı prezidentliyə namizədlərə oktyabrın 24-də və ya 27-də yeni debatla bağlı təklif göndərmişdi.

### Seçicilər narazıdır: hərbi xərclər artır, sosial xərclər isə...

Siyasi analitiklər Trampın bu imtinasının bir sıra mühüm amillərə söykəndiyini yazır. Harrisin bir müddət öncə "Co Baydenin siyasətini davam etdirəcəyəm" proqramı ilə çıxış etməsi onun son 1 ayda artan reputasiyasını yenidən sual altına alıb. 2021-ci ilin yanvarından etibarən Ağ evə sahiblik edən Baydenin son 4 ilə yaxın müddətdəki fəaliyyətinə nəzər saldıqda olduqca mühüm ştrixlər diqqəti cəlb edir:

- Bayden administrasiyası ABŞ-ın illərlə yürütdüyü "yumşaq güc" siyasətindən imtina edərək Vaşinqtonu hərbi müdaxiləçiyə çevirib;

- Bayden administrasiyası ABŞ-ın milli maraqlarını deyil, lokal qrupların maraqlarını qorumağa başlayıb;

- Bayden administrasiyası Rusiya ilə münasibətləri ən son həddə qədər kəskinləşdirərək qütblərarası savaşa yol açıb;

- Bayden administrasiyası ABŞ-ın sosial xərclərini hərbi xərclərə yönləndirib: 2023-cü ildə hərbi büdcə 45 milyard dollar artaraq 847 milyard dollar təşkil edib. 2024-cü il üçün hərbi xərclər 886,3 milyard dollara qədər artıb. 2025-ci maliyyə ili üçün hərbi xərclər 895,2 milyard dollar həcmində təsdiqlənib;

- Bayden administrasiyasının 4 illik hakimiyyəti dövründə qanunsuz miqrasiyasının həddi bir neçə dəfə artıb.

Bunun qarşılığında isə sosial xərclərə ayrılan büdcə vəsaitində artım olduqca cüzi rəqəmlərlə ifadə edilir. Beləliklə, Trampın Harrisi tənqid etməsi üçün bu qədər açıq faktı mövcuddur və bunu seçicilərlə görüşlərdə öz çıxışında da bildirir. Məhz bunun nəticəsidir ki, son günlərdə Harrisin reytinqinin qalxdığı ştatlarda - Nevada, Pensilvaniya, Miçiqan və Viskonsində keçirilən sorğularda Tramp yenidən önə çıxıb.



### Yaxın Şərq ABŞ seçkisinə hansı təsiri edəcək?

Hətta ABŞ-ın tanınmış siyasi analitikləri belə Yaxın Şərqdə baş verənlərin prezident seçkilərinə təsiri haqda fikirlərini bölüşərkən bu təsirləri iki paralel xəttə bölür:

- Demokratların yəhudi lobbisindən "gözləntilərinə;

- Müharibənin genişlənməsinin ABŞ üçün nələr vəd etməsinə.

Birinci hal xüsusilə Bayden administrasiyasının son baş verənlərdəki fəallığı ilə birbaşa əlaqələndirilir. Başqa sözlə, müdafiə naziri Lloyd Ostinin mütəmadi şəkildə Təl-Əvivə ən yüksək səviyyədə yardım üçün hazır olduqlarını bəyan etməsi, Aralıq dənizi hövzəsinə İsrailə yardım üçün təyyarədaşıyan gəmilərin çıxarılması, humanitar yardımların artırılması və ən sərt ritorikadakı yanaşmalar Demokratlar üçün göydəndüşmə fürsət və təbliğat vasitəsi sayıla bilər. Harris artıq bir neçə görüşündə İsrailə yardım məsələsini bu və ya digər şəkildə yəhudi lobbisinin "diqqətinə" çatdırıb. Nəzərə alsaq ki, ABŞ-dakı aparıcı yəhudi lobbisinin nümayəndələri Respublikaçıları dəstəkləyən qrup kimi tanınır, Harrisin bu cəhdlərinin marafonda önə keçmək üçün dəstək qazanmağa hesablandığını görə bilərik.

Yaxın Şərq müharibəsinin uzanması perspektivi isə Demokratların əleyhinə yönələn bir haldır. Bu, avtomatik olaraq hərbi xərclərin bir az daha da artırılmasını zəruri edir - ortadakı fərqi qapatmaq üçün isə mütləq şəkildə sosial xərclərdən və ya milli gəlirlərdən istifadə olunacaq. Bu isə geniş sosial etirazlar doğurur. Trampın artıq səsvermənin "başladığını" bildirməsi də bu faktorla əlaqədardır.

### Demokratların "təbii fəlakəti"...

Respublikaçılar üçün digər bir arqument isə ölkədə baş verən təbii fəlakətlər olub - xəbər verildiyi kimi, "Milton"" qasırğası ABŞ-ın Florida ştatının Sent-Lusi dairəsində azı iki nəfərin ölümünə səbəb olub. Təbii fəlakət nəticəsində, həmçinin bir neçə nəfər xəsarət alıb. Regional Fövqəladə Hallar Agentliyi Floridada qasırğa nəticəsində 125-ə yaxın evin dağıldığını bildirmişdi. "Milton" qasırğasından öncə - sentyabrın sonunda ABŞ-ın bəzi ştatları "Helen" qasırğasından əziyyət çəkmişdi.

Konkret olaraq bu fəlakətlərin fonunda ABŞ hakimiyyətinin ləng tərpənməsi, yardımların gecikməsi ilə bağlı sosial şəbəkələrdə etirazlar bildirilib. Hətta burada Bayden adminstrasiyasının başqa xarici ölkələrə daha tez yardım etmələri tənqid olunub - öz yerli vətəndaşlarına laqeyd münasibət mühüm assosasiya yaradıb. Bu amil də seçkinin nəticələrinə təsir edə biləcək arqumentlərdən hesab olunur.

### Respubilkaçıların Ukrayna arqumenti...

Və nəhayət, Trampın seçki marafonunun uğurlu nəticələnəcəyinə böyük ümidi vətəndaşların ABŞ-ın hazırkı xarici siyasət kursuna müxalif münasibət bəsləməsindən qaynaqlanır. Xüsusilə, Ukrayna müharibəsinə baxış bu məsələdə həlledici rol oynayacaq. Xatırladaq ki, namizədlərin son debatında bu məsələ aktual müzakirə predmetinə çevrilmişdi - Tramp söz vermişdi ki, qalib gəlsə, hələ rəsmi vəzifəyə başlamazdan əvvəl döyüşlərə son qoyacaq. "Mən nə edəcəm - hər iki tərəflə danışacağam, onları bir yerə yığacağam. Mən prezident olsaydım, bu müharibə heç vaxt baş verməzdi... Baydenin onunla (Rusiya prezidenti Vladimir Putin) necə danışacağı, onu necə dayandıracağı barədə heç bir fikri yox idi və indi milyonlarla həyatını itirmiş insanlar var. Vəziyyət getdikcə pisləşir və bu, Üçüncü Dünya müharibəsinə gətirib çıxara bilər", - deyə respublikaçı namizəd bildirmişdi.

Rusiya xarici işlər naziri Sergey Lavrov isə bildirmişdi ki, ABŞ-ın noyabrın 5-də seçiləcək yeni prezidenti ölkə sahillərindən uzaqda "macəra axtarmamalı" və diqqətini özünə - daxili siyasi problemlərinə yönəltməlidir. O əlavə etmişdi ki, Rusiya üçün seçkidə Trampın və ya Harrisin qalib gəlməsinin fərqi yoxdur. Beləliklə, xarici siyasət faktorunda da Tramp özünün mövqeyini Harrisə nisbətən daha çox möhkəmləndirmiş kimi görünür.

### Rəqiblər iki saatda üç dəfə əl sıxdılar...

Yeri gəlmişkən, prezidentliyə namizədlərin seçkiöncəsi bir daha qarşı-qarşıya dayanmayacaqlarının ortaya çıxdığı bir zamanda, vitse-prezidentliyə namizədlərin də debatı böyük maraq kəsb edib. Baş tutan debatda Respublikaçıların vitse-prezidentliyə namizədi Ceyms Devid Vens Trampın seçki kampaniyasına müsbət təsir edəcək məsələlərdən - inflyasiya, iqtisadiyyat və qeyri-qanuni immiqrasiya haqqında danışıb. Tim Uolz isə Demokratların seçki platformasında yer alan səhiyyə və abortla bağlı mövqeni seçicilərə açıqlayıb. Debata ev sahibliyi edən CBS telekanalı izləyicilərin 42 faizinin respublikaçı Vensi dəstəklədiyini bəyan edib. Amma demokratların vitse-prezidentinin göstəricisi də çox az deyil - o, izləyicilərin 41 faiz dəstəyini qazanıb. Müstəqil müşahidəçilər isə Vensin çıxışını daha inandırıcı adlandırıblar. Məsələn, mühafizəkar mövqeni dəstəkləyən "New York Times"-ın köşə yazarı Ross Dautat Vensin çıxışını XXI əsrdə baş tutan debatların içində ən yaxşı çıxış kimi qiymətləndirib. Debatda baş verən ən maraqlı hadisələrdən biri isə iki saatlıq duel vaxtı rəqiblərin üç dəfə əl sıxışması olub: səhnə arxasında, debatın əvvəlində və sonda...

**P.İSMAYILOV**

# Hindistan dərvişi

## Rabindranat Taqorun "Gitancali" mistik toplusu haqqında

Taqor hind xalqının peyğəmbəridir - sözün həm məcazi, həm də gerçək mənasında.

Hələ atası induizmə (onun fikrincə) sonradan sırınmış bütpərəstliyi, çoxallahlılığı inkar eləyir, ümməti qədim arilərin unudulmuş monoteist dünyagörüşünə qayıtmağa, xristianlığa, islama bənzər təktanrılı dinə tapınmağa çağırırdı. Bu baxımdan onun da, sonralar dünya şöhrəti qazanası oğlunun da missiyası onlardan üç min il əvvəl yaşamış yəhudi peyğəmbərlərinin missiyasına çox bənzəyir.

Üstəlik, bu missiya hind xalqının, benqal dilinin sərhədləriylə çərçivələnməmişdi, başda Avropa olmaqla bütün qitələrə, bütün millətlərə təsir göstərmişdi. Qoca qitənin bəzi parlaq zəkaları hətta bu fikirdəydilər ki, Taqorun mistik nəğmələri, duaları onlara xristianlığı yenidən dəyərləndirmək, Məsihin təlimini daha dərindən anlamaq imkanı yaradıb.

***

"Gitancali" poemasının adını dilimizə dəqiq çevirmək üçün benqal dilinin incəliklərini bilmək gərəkdir. Təqribən belə də demək olar: "Dua-sənə nəğmələri". 157 şeirdən ibarət toplu orijinalda nəzmlə qələmə alınsa da, ingiliscəyə mənsur şeir janrında çevrilib. Tərcüməçi də bir özgəsi yox, müəllif özüdür.

Əsərin çevrilmə tarixçəsi belədir: 1912-ci ilin martında Taqor Avropa səfərinə çıxmağı planlaşdırır, ancaq bərk xəstələnməsi ucbatından səfər yazqabağı yox, mayın sonlarında baş tutur. Bu müddət ərzində yeni nəsə yazmağa halı olmayan işgüzar, məhsuldar şair bekar oturmamaq üçün "Gitancali"ni ingilis dilinə çevirməyə, daha doğrusu, onu ingiliscə yenidən yazmağa başlayır. Bu toplunu o, dörd-beş il ondan qabaq, əlli yaşı ərəfəsində qələmə almışdı, indi, özünün deməsinə görə, bir zaman yaslı-yaralı könlündə bayram tonqalı qalamış duyğuları, həyəcanları başqa dil vasitəsilə yenidən yaşamaq istəyirdi.

Londona çatanda müəllif "Gitancali"nin tərcüməsindən ibarət bir neçə dəftəri oxumaq üçün dostu, tanınmış incəsənət adamı Uilyam Rotenşteynə verir. Rotenşteyn əsəri bir gecəyə gözünə təpir, sonra dəftərləri irland əsilli məşhur ingilis şairi Uilyam Yeytsə ötürür. Yeytsin təşəbbüsü, həm də ön sözüylə toplu elə həmin 1912-ci ildə Londonda çap olunur. 1913-cü ildə isə Rabindranat Taqor "Gitancali"yə görə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülür. O, bu mükafatı alan ilk asiyalı qələm adamıydı.

***

"Gitancali" poetik topludan çox dini kitaba bənzəyir. Burada yer almış mənsur şeirlər Allahla söhbət, Tanrıya ünvanlanmış dualar, müəllifin aşiq olduğu fövqəlbəşər qüvvənin dərgahına göndərilən sevgi, mədhiyyə, yalvarış dolu məktublardır.

Dövrün pessimist-tragik Avropa poeziyası, skeptik-ateistik ədəbi-ictimai ovqatı fonunda Taqorun duaları unudulmuş bir dinin ehyası kimi zühura gəlir. Bu mistik nəğmələri induizmin Vedalarına, Upanişadlarına, buddizmin Dhammapadasına, zərdüştiliyin Qatalarına, Əhdi-ətiqin Zəburuna, Əhdi-cədidin İncilinə, Quranın Məkkə surələrinə qohumluq telləri bağlayır. Əsərin dünya savaşı ərəfəsində qaranlığa qərq olmuş Avropada böyük uğur qazanmasının bir səbəbi də, görünür, elə bu qohumluq, insanların dinimistik duyğularını yerindən tərpətməsi, haqqa inam, gələcəyə ümid aşılaması, göylər səltənətinə yeni cığır açmasıydı.

Qərbdə o, şairdən də artıq neço min il yaşı olan Şərq müdriki, din xadimi, gündoğandan zühur eləmiş peyğəmbər kimi qavranırdı. Bunu da unutmayaq ki, Rabindranat Taqor brahman nəslindən idi, ona belə bir rütbə anadangəlmə verilmişdi.

Hərçənd oxuduğu duaların Avropada qazandığı uğur hamıdan çox müəllifin özünü təəccübləndirmişdi, Taqor hesab eləyirdi ki, ingilis dilini çox pis bilir.

***

Müəllif sufi şairlər sayaq Tanrıya sevgilisi, dostu, sirdaşı kimi üz tutur:

"Sən mənə nəğmə oxumaq əmri verəndə sanıram qəlbim qürurdan parçalanacaq. Sənin üzünə baxıram, gözlərim yaşla dolur.

Həyatımın hər dərdi, həyəcanı şirin ahəngə dönür, ruhum dəniz üzərində uçan şən quş kimi qanadlanır.

Bilirəm ki, nəğməm sənə xoş gəlir. Bilirəm ki, hüzuruna yalnız nəğmələrimlə yol aça bilərəm.

Nəğmələrimin gen açılmış qanadlarıyla sənin qədəmlərinə toxunuram, halbuki əvvəllər buna əsla cürət eləməzdim.

Mən nəğmələrimin verdiyi sevincdən sərməst olub özümü unuduram və səni - mənim Allahımı öz dostum adlandırıram".

Taqorun lirik qəhrəmanı özünü öz bütündə əridib itirməyə, sufilərin təbirincə desək, Allahda fəna olmağa çalışır. Bu duanı əsərin başlıca hədəfi, proqramı da saymaq olar: "Qoy mənim heç bir diləyim başa gəlməsin, qoy ömrüm başdan-başa sənin iradənin təcəssümünə çevrilsin". Bunu deməklə şair tanrısından onu özbaşına buraxmamağı diləyir, özünü Allaha tapşırır, öz arzusundan, niyyətindən, planlarından üz döndərib həyatını, varlığını büsbütün Yaradanın ixtiyarına verir, özünü Tanrıya təslim eləyir:

"Mən yalnız sənin hökmünə müntəzirəm ki, nəhayət, ona təslim olum. Bax buna görə də mən bunca fürsəti əldən verməkdə suçluyam.

Üstümə gəlib qanun-qaydalarla məni əl-qolumu möhkəm-möhkəm bağlamaq istəyirlər. Amma mən onlardan qaçıram. Çünki yalnız sənin hökmünə müntəzirəm ki, nəhayət, ona təslim olum.

Adamlar məni qınayıb laqeyd adlandırırlar. Şübhə yox ki, onlar haqlı qənaətə gəliblər.

Bazar bağlandı, işləyənlər azad oldu, məni çağırmaqdan yorulanlar hay verməyib görüb qəzəblə uzaqlaşdılar. Mənsə yalnız sənin hökmünə müntəzirəm ki, nəhayət, özümü ona təslim eləyim".

İnsan öz cılız ağlıyla xeyirin harada, ziyanın harada olduğunu anlamaya bilər, faydalı sandığı bir yolun onu fəlakətə apardığını qanmaya bilər, ancaq fövqəlbəşər qüvvəyə bütün bunlar əyandır. Böyük Şahmatçı bütün gedişlərin sonunu görür, odur ki, mömin bəndənin hələ bu dünyadaykən özünü Ona təhvil verməkdən, Onun iradəsinə təslim olmaqdan doğru yolu yoxdur.

Elə "təslim" kəlməsiylə bir kökdən yaranmış "islam" anlayışının da mənası, mahiyyəti budur: öz iradəni, niyyətini, qürurunu şeytana təhvil verib Tanrının ssenarisində rol almaq, ilahi iradəyə könüllü tabe olmaq, Tolstoyun təbirincə desək, dərk olunan azadlıqdan əl çəkib hiss olunmayan asılılığı qəbul eləmək.

***

Eynən qədim peyğəmbərlər kimi o da Allaha qəzalar, fəlakətlər içindən sıyrılıb pənah aparmışdı. 1902-ci ildə həyat yoldaşının vəfatından sonra qırx bir yaşlı şair bu itkinin acısıyla "Yaddaş" adlı poetik silsilə qələmə aldı. Ancaq fələk hələ onunla haqq-hesabı çürütməmişdi - 1903-cü ildə qızlarından biri vərəmdən, 1907-ci ildə kiçik oğlu vəbadan öldü. Bu aralıqda onun müdrik kimi yetişməsinə böyük təsir göstərmiş, ona həm mənəvi, həm maddi dayaq olmuş sevimli atası da dünyadan köçdü.

Qırx yaşını yenicə geridə qoymuş bir insan üçün bunlar dözülməz itkilərdir, bir başqası belə ağır cəzaya görə dinindən, imanından dönər, allahına asi düşərdi. Taqor isə tanrısını qətldə suçlamadı, Yaradanın əlini doğmalarının qanına batırmadı, fələyin başına gətirdiyi bəlalara, canına kəsdiyi cəzalara, işgəncələrə Allahı sevməklə, şərdən, şeytandan Ona sığınmaqla cavab verdi. Buna görə də ağrılardan, əzablardan qəzəb yox, səs yarandı:

"Mənə işıq ver, işıq! Onu arzularının coşqun alovunda yandır!

Sənin qismətin sönməz bir çıraq olmaqdır, ey ürək! Ah, ölüm sənin ən gözəl nəsibindir!

Fəlakət sənin qapını döyüb xəbər verir ki, Allahın oyaqdır, səni gecənin zülmətində görüşə çağırır.

Göyləri bulud alıb, yağış durmadan yağır. Bilmirəm məni belə həyəcanlandıran nədir, bilmirəm mənə nə olub.

Bir anlığa parlayan şimşək qaranlığı daha da qatılaşdırır, qəlbim məni gecənin musiqisinin apardığı cığırla əlhavasına, qarasına addımlayır.

İşıq ver mənə, işıq! Onu arzularının coşqun alovunda yandır!

Göy guruldayır, külək coşur. Gecə kömür kimi qapqara. Dağıt qaranlığı! Öz həyatınla sevgi çırağını yandır!"



**F.Uğurlu**

davamı növbəti sayımızda

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Qız övladı yük deyil!

## Beynəlxalq Qızlar Günüdür...



Təəssüf ki, bir çox cəmiyyətdə qız uşaqlarına münasibət birmənalı deyil. Hətta bəzi ailələrdə qız övladının varlığı valideynlər üçün “yük” kimi qəbul olunur. Bu düşüncənin isə çox qədim kökləri, ibtidai təməlləri var. Bəlkə elə buna görə ibtidai təfəkkürdən xilas ola bilməyənlər qız övladını daxilən çox sevsələr də, onu duz yükü qədər ağır bir yük kimi dəyərləndirirlər.

Ancaq elmin və mədəniyyətin işığıyla aydınlanan ailə mühitində belə mənzərə yoxdur. Həmin ailələrdə qız uşağı ailənin başqa fərdləri ilə bərabər, hüquq və azadlıqlara sahib olmaqla yanaşı, həm də atanın ən çox etimad göstərdiyi övlada çevrilir. Şübhəsiz ki, dünyanın ən xoşbəxt qızları da məhz ataları tərəfindən dəstəklənir.

Həyatımızda bir neçə vacib və məsuliyyətli vəzifələr var. Bu vəzifələr sırasında valideynlik öndə gəlir. Həyatla bağlı çox şeyi özümüzdən əvvəl yaşayan insanlardan öyrənir, görüb-götürürük. Bu səbəbdən ağlı, qabiliyyəti ilə dünyada tanınan dahilər, yazıçılar və sənətkarlardan bir neçəsinin qızlarına olan münasibəti, etimadı, onlara yazdıqları məktublar maraq doğurur.

Məsələn psixoanaliz elminin banisi Ziqmund Freyd qızı Lieserlə yazdığı məktubda deyirdi: “Əzizim, Lieserl, ən çox güvəndiyin insanlardan pislik gördüyün üçün üzülməyin sənin zəif olduğunu göstərmir. Fizikanın qanunlarına görə, arxanı söykədiyin nəsnə bir anda yox olarsa, sən də o tərəfə doğru yıxılarsan. Yəni ki, bunun gücsüzlüklə heç bir əlaqəsi yoxdur”.

**“Davamlı inkişaf üçün qızların səsini ucaldaq”**

Bu gün Beynəlxalq Qızlar Günü kimi qeyd edilir. BMT Baş Assambleyasının qərarı ilə oktyabrın 11-i Beynəlxalq Qızlar Günü kimi təsis edilib. Bu günün qeyd olunmasında əsas məqsəd diqqəti qızların hüquqlarının müdafiəsinə, oğlan və qızlar arasında gender bərabərliyinin təmin olunmasına, müxtəlif növ ayrı-seçkilikdən və baxımsızlıqdan əziyyət çəkən qızlara yönəltməkdir. Beynəlxalq Qızlar Gününün builki devizi isə “Davamlı inkişaf üçün qızların səsini ucaldaq” adlanır.



Qızlar həyatlarının hər bir yaş mərhələsində təhlükəsizlik, təhsil və sağlamlıq hüququna malik olmalıdırlar. Yetkinlik dövründə hər bir dəstəyi alan qızlar gələcəkdə kadr, sahibkar, siyasi lider ola bilmək üçün öz potensiallarını daha yaxşı həyata keçirə və dünyaya daha yaxşı töhfələr verə bilərlər.

Hazırda dünyada 1 milyarda qədər gənc yaşayır ki, onlardan da 600 milyonu yetkinlik yaşında olan qızlardır. Onlar gələcəyimizin qurulmasında böyük potensiala malikdir. Son 15 ildə dünya ictimaiyyəti qızların həyatının yaxşılaşdırılmasında əhəmiyyətli irəliləyiş əldə edib. Lakin müasir dövrümüzdə hələ də elə ölkələr var ki, orada qızlara, qadınlara qarşı fərqli yanaşmalar, ayrı-seçkilik mövcuddur.

**Dünyada hər 3 qızdan biri 18 yaşına çatmamış ərə gedir**

Beynəlxalq ekspertlər bildirirlər ki, dünyada gedən bir sıra proseslər qızların həyatında silinməz izlər qoyur: Onlar məktəbdən yayındırılır, erkən yaşda ərə verilir, insan alverinə məruz qalırlar. Dünyada orta hesabla 20-24 yaş arasında olan hər üç qadından biri 18 yaşına çatmamış ərə gedir. Bu cür qızların üçdə biri 15 yaşına çatmamış nikaha daxil olur. Uşaq nikahı əsas insan haqlarının pozulması deməkdir və qızların həyatının bütün aspektlərinə mənfi təsir göstərir. Erkən nikahlar qızları uşaqlıq çağından məhrum edir. Onları zorla təhsildən əl çəkməyə məcbur edirlər. Bu cür qızların imkanları son dərəcə məhdudlaşdırılır, lakin zorakılığa məruz qalmaq və yoldan çıxarılma halları bir neçə dəfə yüksəkdir.

*Yeganə BAYRAMOVA*



# Artıq çəkinin fəsadları...

## Piylənmə ilə Mübarizə Günüdür!

Günümüzdə piylənmə və artıq çəki tibbin aktual problemləri sırasındadır. Bu problemin əsas səbəblərindən biri normadan artıq yüksək kalorili qidalar qəbul etmək və hərəkətsizlikdir. Piylənmə əksər hallarda orqanizmə qida vasitəsilə daxil olan enerji ilə onun sərfi arasındakı balanssızlıq nəticəsində yaranır. Bədəndəki artıq kalori piyə çevrilərək, depo şəklində dərialtı qat, piylik, qarın divarı və daxili orqanlarda toplanır. Sadə dildə desək, piylənmə orqanizmdə artıq yağ toplanmasıdır. Orta bədən kütləsinə malik kişilərdə piy toxuması 15-20, qadınlarda isə 25-30 faiz arasındadır.

Yeri gəlmişkən, oktyabrın 11-i Ümumdünya Piylənmə ilə Mübarizə Günü kimi qeyd edilir. Hələ 1997-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) piylənməni qlobal xarakter alan bir epidemiya kimi qəbul edib. O vaxtdan başlayaraq həkimlər artıq çəki və piylənmə problemi haqqında əhalinin maariflənməsi sahəsində intensiv kampaniya aparır, piylənməyə aparan səbəblər və onun fəsadları haqqında məlumatlandırırlar.

**1975-ci ildən etibarən 3 dəfəyədək artıb...**

ÜST-ün apardığı tədqiqatlar göstərir ki, insanın bədən kütləsinin artması müxtəlif patalogiyaların inkişaf riskinin yüksəlməsinə səbəb olur. Ona görə də bu xəstəliyi istənilən yolla, hətta cərrahi müdaxilə yolu ilə də müalicə etmək önəmlidir. ÜST piylənməni “sağlamlıq üçün təhlükə yaradan həddindən artıq və ya anormal piy yığılması” olaraq təyin edir. Artıq çəki və piylənmə xəstəliyi bir çox metabolik, ürək-damar, ortopedik və psixiatrik pozğunluqlara səbəb ola bilər.

Təşkilatın verdiyi məlumata əsasən, 1975-ci ildən hazırkı vaxta qədər piylənmədən əziyyət çəkən xəstələrin sayı 3 dəfəyə qədər artıb. Ölkəmizdə kişilərin 50 faizi, qadınların isə 60 faizi artıq çəkidən əziyyət çəkir.

**Oturaq həyat tərzi**

Araşdırmalara görə, işləyən insanlar gün ərzində təxminən 8, həftədə 40, ildə isə 2 min saatını masa arxasında çalışaraq keçirir. Ofisdə istehlak edilən düzgün olmayan qida rejimi isə piylənmə riskini daha da artırır. Mütəxəssisin sözlərinə görə fiziki fəaliyyət sağlam çəki saxlamağa kömək edir və bu da öz növbəsində immunitet sisteminin ən yaxşı şəkildə işləməsinə imkan verir. Həddindən artıq çəki və oturaq həyat tərzi isə orqanizmi bu müdafiə mexanizmindən məhrum edir - immun hüceyrələr xərçəng hüceyrələrini daha az tanıyır və onları məhvə sürükləyir.

**Valideynlərin doğru bildiyi yanlış...**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan dietoloq Şəfa Yadigarova piylənmənin 2-ci tip diabet, ürək xəstəlikləri və bəzi xərçəng növlərinə səbəb ola biləcəyini diqqətə çatdırıb. Dietoloq qeyd edib ki, körpə uşaqların valideynləri həddən artıq çəki probleminə görə, həkimlərə tez-tez müraciət edirlər: “Belə müraciətlərin sayı artıb. Valideynlərdə belə bir fikir formalaşıb ki, uşağı yaxşı yedizdirmək lazımdır ki, o sağlam olsun. Bu, çox yanlış yanaşmadır. Əgər valideynlər övladlarının gələcəyini düşünürlərsə, onları körpəlikdən düzgün qidalanmağa öyrətməlidirlər və rejimlə qidalandırmalıdırlar”.

**Piylənmə oğlanlarda qadın hormonunu artırır**

Dietoloqun sözlərinə görə, yeniyetməlik çağında baş verən piylənmə həm oğlan, həm də qızlarda böyük problemlər yaradır: “Gənc qızların ana olmaq şansı azalır, oğlanlarda isə bütün funksiyalar pozulur və onlarda qadın hormonu daha aktiv olur. Kökəlmə yeniyetmənin görkəminə təsir edir, daxili orqanları piylənir”.

*Yeganə BAYRAMOVA*

## İdman

# Azərbaycan Kubokunda I təsnifat mərhələsinin oyunlarını idarə edəcək hakimlər açıqlanıb

Azərbaycan Kubokunun I təsnifat mərhələsində keçiriləcək qarşılaşmalara hakim təyinatları açıqlanıb.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, “Şimal” və “Qusar” komandaları arasında baş tutacaq qarşılaşma Misli Premyer Liqasının oyunlarını idarə edən Səbuhi Bayramova tapşırılıb.

12 oktyabr

14:00.”Şahdağ Qusar” - “Kür-Araz”

Hakimlər: İslam Məmmədov, Elmin Süleymanov, Mirnihat Seyidov, Rəsul Babayev

Hakim-inspektor: Ceyhun Haşımov

Şamaxı Olimpiya İdman Kompleksinin stadionu

16:30. “Şəfa” - “Saatlı-Araz”

Hakimlər: Rövşən Rəcəbov, Rasim Axundov, Nurlan Əhmədzadə, Maqsud Şamıyev

Hakim-inspektor: Gülağa Cabbarov

ASK Arena

13 oktyabr

14:00. “Şimal” - “Qusar”

Hakimlər: Səbuhi Bayramov, Sənan Atayev, Samir Qaracayev, Emin Abdullayev

Hakim-inspektor: Feyzulla Feyzullayev

Siyəzən stadionu

14:00.”Lerik” - “Ağdaş”

Hakimlər: Murad Səlimov, Orxan İbişov, Zakir Şükürzadə, Sənan Bayramzadə

Hakim-inspektor: Orxan Məmmədov

Lənkəran Olimpiya İdman Kompleksinin stadionu

14:00. “Sheki City” - “Şəmkir”

Hakimlər: Vüqar Həsənli, Anar Bədəlov, Aydın Bəxşiyev, Niyaz Əhmədov

Hakim-inspektor: Zöhrab Qədiyev

Şəki stadionu

15:00. “Göygöl” - “Hypers-Quba”

Hakimlər: Elvin Bayramov, Vüqar Bayramov, Asif Abdullayev, Nazim Süleymanov

Hakim-inspektor: Rövşən Əhmədov

Göygöl Olimpiya İdman Kompleksinin stadionu

14 oktyabr

13:30. “Dinamo” - “Füzuli”

Hakimlər: Ruslan Quliyev, Səbuhi Əmrahov, Səbuhi Soltanov, Namiq Bəkirov

Hakim-inspektor: İmanxan Sultani

Neftçi Futbol Mərkəzi



# Bakıda bədii gimnastika üzrə beynəlxalq turnir keçiriləcək

Bakıda bədii gimnastika üzrə “Winter Fairytale” beynəlxalq turniri keçiriləcək.

“Report” xəbər verir ki, bu barədə Azərbaycan Gimnastika Federasiyasının (AGF) mətbuat xidməti məlumat yayıb.



Yarış dekabrın 14-15-də Milli Gimnastika Arenasında təşkil ediləcək.

AGF-dən bildirilib ki, tədbir 2009-2018-ci il təvəllüdlü gimnastların nağılları xatırladan çıxışlarını və qışın sehrini bir araya gətirəcək.

# Azərbaycan güllə atıcıları dünya çempionatında tarixi nəticəyə imza atıblar

Azərbaycan güllə atıcıları Perunun paytaxtı Limada gənclər arasında keçirilən dünya çempionatında 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanmaqla tarixi nəticəyə imza atıblar.

“Report” xəbər verir ki, ilk dəfə müstəqil Azərbaycanın atıcıları gənclər arasında dünya çempionatında medal əldə ediblər.

Mundiala 7 idmançı ilə qoşulan yığma yarışı ümumi medal sıralamasında 12-ci pillədə başa vurub.

Çempionatın ilk günündə Zeynəb Sultanova, Leyli Əliyeva və Sofiya Barxalovasan ibarət heyət komanda üzrə 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada gümüş medal əldə edib. Onlar yalnız Hindistan komandasına məğlub olaraq, fəxri kürsünün ikinci pilləsinə yüksəliblər.



İmran Qarayev oğlanlar arasında 50 metr məsafəyə atəşaçmada qızıl medal qazanıb. O, final mərhələsində 552 xalla rumıniyalı rəqibini geridə qoyub. Eyni gündə Sofiya Barxalova qızlar arasında 50 metr məsafəyə atəşaçmada 535 xal toplayaraq bürünc medala sahib çıxıb.

Bundan əlavə, fərdi yarışda Zeynəb Sultanova və Vladislav Kalmıkov 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçmada final mərhələsinə ikinci olaraq vəsiqə qazansalar da, mübarizəni 5-ci pillədə başa vurublar. Ümumilikdə 51 ölkədən 566 idmançının iştirak etdiyi çempionatda yalnız 15 ölkə, o cümlədən Azərbaycan çempionluq sevincini yaşayıb.




# Ölkənin lider mobil operatoru iki qızıl mükafata layiq görüldü!

## Azercell Stevie Beynəlxalq Biznes Mükafatları tərəfindən “İlin Texnoloji Yeniliyi” və “İlin Korporativ Sosial Məsuliyyət Proqramı” nominasiyaları üzrə qalib seçilib

“Azercell Telekom” MMC-nin nailiyyətləri Stevie Beynəlxalq Biznes Mükafatlarının (IBAs) münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib. Lider mobil operator ölkədə süni intellekt əsasında çalışan ilk Azərbaycandilli Virtual Assistent xidməti - “Aicell”in tətbiqinə görə “İlin texnoloji yeniliyi” nominasiyası üzrə Qızıl mükafata layiq görülüb.

Bundan əlavə, Azercell-in Azərbaycan Cüdo Federasiyası ilə əməkdaşlıqda həyata keçirdiyi “Qızlara ağ yaraşır” sosial kampaniyası “İlin korporativ sosial məsuliyyət proqramı” seçilməklə Qızıl mükafatçılar sırasında yer alıb.

Xatırladaq ki, Azərbaycan dilində tam spektr xidmət göstərən “Aicell” abunəçiləri operatorlara yönləndirmədən bir çox sorğuları dərhal yerinə yetirir, bununla da qısa müddət ərzində daha çox müraciətin cavablandırılmasına, həmçinin müştərilərin vaxtına qənaət edilməsinə dəstək olur.

“Qızlara ağ yaraşır” sosial layihəsinin əsas məqsədi qızları sağlam və fəal həyat tərzi sürməyə təşviq etməklə yanaşı, erkən nikahlara qarşı mübarizə aparmaq olub. Kampaniya çərçivəsində Azərbaycan Cüdo Federasiyasının məktəbləri və bölmələri olan bölgələrdə qeydiyyatdan keçən yeniyetmə qızlara cüdoqi və 1 ay ödənişsiz məşq hədiyyə olunub. Layihə minlərlə gənci idmanla məşğul olmağa sövq etməklə bərabər, cüdo ilə məşğul olan qızların sayında 100% artımla nəticələnib. Kampaniya dəfələrlə beynəlxalq və yerli mükafatlara layiq görülüb.

Qeyd edək ki, dünya işgüzar aləmində ən mötəbər mükafatlardan biri olan Stevie innovasiya, liderlik, müştəri xidməti, marketinq və insan qaynaqları kimi sahələrdə fərqlənən qurumları təltif edir və dünya üzrə 200-dən çox peşəkarın iştirak etdiyi ciddi qiymətləndirmə prosesi ilə tanınır.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4806
Sifariş: 2340
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli